

## DÜNYADA VƏ ÖLKƏMİZDƏ HZ. HÜSEYNİN (Ə) VƏ KƏRBƏLA MƏKTƏBİNİN YAŞADILMASI MƏQSƏDİ İLƏ ZƏHMƏT ÇƏKƏNLƏRƏ TƏŞƏKKÜR EDİRƏM. ALLAH SALEH ƏMƏLLƏRİ QƏBUL ETSİN! AMİN

*Hz. Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseynin (ə) Kərbəla vaqiəsindəki məram və məktəbinin yaşadılmasında və olduğu kimi Aşura mahiyyətini bəşəriyyətə çatdırmaq məqsədi ilə mərasimlər təşkil etmənin, məzlumun yanında olub zülmə qarşı həmrəylik nümayiş etdirərək bir araya toplanmanın çox böyük əhəmiyyəti var.*

*Fikrimcə, dinimizin yaşaması uğrunda canından və yaxınlarında keçən Hz. Hüseynin (ə) Kərbəla həqiqətləri əgər xurafatdan uzaq şəkildə dünyaya çatdırılarsa Aşuralar yaşanmaz, günahsız insanlar ölməz, Kərbəlalar (qətliamlar) təkrarlanmaz insanlıq da ölməzdi.*

*Məhərrəm mərasimləri davam etməlidi o zamana qədər ki: 1) Bəşəriyyət və xüsusi ilə müsəlmanlar Hüseynin (ə) məktəbindən dərs alıb ibrət götürəcək, Hüseynin (ə) yolunda fəda olduğu dini həyatlarında yaşayacaqlar. 2) Dünyada sülh, barış, haqq və ədalət hökm sürəcək. Batil haqqa məğlub olacaq, zalimlər zülmlərindən əl götürəcək, günahsız insanlara terror edilməyəcək, özünü insan hesab edən biri din qardaşına və hər hansı adəm övladına amansız olmayacaq, qətllər törətməyəcəkdir. 3) Zamananın sahibi olan Hz. Mehdini (ə) zühur edərək zülmlə dolmuş dünyanı ədalətlə gülüstan edəcək, yer üzündə haqqı bərpa edəcəkdir.*

*Sonda İmam Hüseynə (ə) aid məclislərin və Tasua yürüşlərinin təşkilində zəhməti keçən və iştirak edən Hüseynsevərlərə və eləcə də bu günlər münasibəti ilə qan aksiyası keçirən və xəstələrə qan bağışlayan və hər növ İmam ehsanı verən xeyirxahlara, elmi seminarlar vasitəsi ilə ziyalı və tələbələri agah edən, mərasimləri idarə edən müsəlman dostlara və xüsusi ilə də Kərbəla həqiqətlərini və İslam maarifi və dəyərləri ilə məclis iştirakçılarını tanış edən din xadimi və məddah qardaşlarımıza minnətdarlığımı bildirir, pak niyyətli saleh əməllərin Yaradan qarşısında qəbul olmasını diləyirəm. Allah bizi Hüseyni (ə) və məktəbini düzgün öyrənən və Onun Cəddinin yolunu gedənlərdən qərar versin. Amin!*

**Hacı Ramin İgidov**
**Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi**

# İMAM HÜSEYN (Ə) HİDAYƏT ÇIRAĞI VƏ NİCAT GƏMİSİDİR

**Hədis qaynaqlarında deyilir: “Ərşin sağ tərəfində yazılmışdır ki, Hüseyn (ə) hidayət çırağı və nicat gəmisidir (Əmin əl-İslam Fəzl ibn Həsən Təbərsi, “Elam əl-vəry”, səh. 400).**

**Buna əsasən soruşula bilər ki, nə üçün imamlar (ə) arasında bu ləqəb yalnız İmam Hüseynə (ə) verilmişdir? Cavab olaraq demək lazımdır ki, əgər imamlar (ə) vahid nurdurlarsa, hamısı hidayət çırağı hesab olunurlar. Amma zaman şəraiti bais olur ki, onların şəxsiyyətinin müəyyən yönləri daha çox qabarsın və üzə çıxsın. Nəticədə Allahın adlarından birinin təzahürü olsun.**




İki misala nəzərən yuxarıdakı mətləbləri izah etmək olar:

**Birinci misal:**

İmamlardan yalnız beşinci imam (ə) “Baqir”, yəni “elmləri açan” ləqəbini almışdır. Baxmayaraq ki, bütün məsum imamlar ilahi biliyə malik idilər və bu, yalnız beşinci imamın (ə) yaşadığı dövrün şəraitinin ortaya çıxartdığı xüsusiyyət idi. Digər tərəfdən o dövrdə yeni sektalar, fikirlər ortaya çıxmışdı. Başqa bir tərəfdən Bəni-Üməyyə hakimiyyəti zəifləmişdi. Bu zaman əlverişli şərait yaranmışdı və əhlibeyt yolunun əsaslarını izah etmək zəruri idi. Bunu görən imam (ə) tədris sahəsində fəaliyyətə başladı və bu, İmam Sadiq (ə) dönəmində daha da genişləndirildi. Əhli-beyt (ə) məktəbi daha dəqiq izah edildi, çoxlu sayda şahidlər yetişdirildi və təbliğ üçün İslam dünyasının ən ucqar yerlərinə göndərildi. Beşinci imamın (ə) bu rolu ona “Baqir əl-ülum”, yəni elmləri açan ləqəbinin verilməsinə gətirib çıxartdı. Amma bu heç də o demək deyil ki, digər imamlar alim olmayıblar. Əksinə, bu ləqəb yalnız beşinci imamın (ə) Əhli-beyt (ə) məktəbinin ana xəttini cızmaqdakı rolunu ifadə edir.

**İkinci misal:**

İmamlardan yalnız İmam Əli (ə) və İmam Hüseyn (ə) “Sarullah” (Allahın qanı və ya qan sahibi Allah olan şəxs deməkdir) ləqəbini almışlar. Baxmayaraq ki, onların heç biri dünyadan təbii ölümlə getməmişlər və Allah yolunda şəhid olmaq onlara nəsib olmuşdur. Buna səbəb odur ki, imamlardan yalnız bu ikisinin qanı yerə axmış və o şəraitdə, o şəkildə şəhid olmaqla İslama can verməkdə xüsusi rol oynamışlar. Bu, heç də o demək deyil ki, yad edilən xüsusiyyət digər imamlarda olmamışdır. Başqa sözlə, baxmayaraq ki, bütün imamlar ilahi ad və sifətlərin kamil təzahürləridirlər. Amma xüsusi şərait və zaman kəsiyi onların şəxsiyyətlərinin müəyyən yönlərinin təcəlla etməsinə, onların Allahın adlarından yalnız birinin təzahürü olmasına səbəb olurdu. Amma nə üçün hidayət çırağı və nicat gəmisi ifadəsi yalnız İmam Hüseyn (ə) haqqında təkidlə işlədilir? Baxmayaraq ki, “Səfinə” hədisinə görə, bütün Əhli-beyt (ə) nicat gəmisidir. Misal üçün, “Mənim Əhli-beytim (ə) sizin aranızda Nuhun (ə) gəmisi kimidir” hədisi bu qəbildəndir. Cavab olaraq deməliyik ki, İmam Hüseynin (ə) şəraiti və mövqeyi xüsusi şərait idi. O şəraitdə Bəni-Üməyyə zəhərli təbliğatı ilə İslamın simasını dəyişmişdi. Aydındır ki, belə bir islam insanları hidayət edə bilməzdi. Xəlifəsinin əyyaş və qumarbaz bir insan olmasına göz yuman islam, etnik ayrı-seçkilik salan, təbəqə ayrı-seçkiliyi salan islam, başında dayananlar məst ikən camaat namazına gələn islam əsla hidayətçi ola bilməzdi.

İmam Hüseyn (ə) öz qiyamının məqsədini açıqlayarkən buyurur: “Mən nə rifah, nə də hakimiyyət, nə fəsad, nə də zülm üçün ayağa qalxmamışam. Əksinə, babamın ümmətini islah etmək üçün qalxmışam” (Baqir Şərif Qurəşi, “Həyati-İmam Hüseyn ibn Əli (ə), c. 2, səh. 264. İmam (ə) digər bir cümləsində buyurur: “İlahi, mən yaxşılığı sevir, pisliyi inkar edirəm”, “Bihar əl-ənvar”, c. 43, səh. 328).

O həzrət (ə) öz zəmanəsinin ictimai vəziyyətini təsvir etdikdən sonra buyurur: “Görmürsünüzmü ki, haqq-ədalət icra olunmur və xalq batildən əl çəkmir?” Belə aludə bir mühitdə hər bir imanlı insan ölüm və Allahla görüş arzulayır/.

(“Əyan əş-şiə”, c. 4, səh. 234-235).

Yaxud, Yezidin hakimiyyətə gəlməsindən xəbərdar olduqda buyurdu: “İnsanlar və cəmiyyət Yezid kimi bir hakimə düçar olduqda İslam və müsəlmanların “Fatihə”sini oxumaq, onlarla xudahafizləşmək lazımdır” (“İbn Tavus, “Lühuf”, səh. 11).

İmam (ə) belə bir şəraitdə həm islamı məhv olmaqdan xilas edə bildi, həm də həqiqi islamın bütün yönlərini əməldə bəşəriyyət üçün nümayiş etdirdi. Əslində insanlar üçün hidayət və nicat yolunu təcəssüm etdirdi.

Bu baxımdan Kərbəla hadisəsi və xüsusilə Aşura günü bütün fəzilət və yaxşılıqların İmam Hüseyn (ə) və silahdaşlarının müqəddəs vücudunda zühur etdiyi gündür. Bunu iddia edə



bilərik ki, İslamın bütün yönləri onlar tərəfindən qan rəngilə Kərbəla torpağında tarixin əbədi tablosuna həkk edilmişdir. Bir halda ki, digər imamlar (ə) üçün belə bir şərait yaranmamışdı ki, bütün fəzilətlərini, xüsusiyyətlərini haqiqət sorağında olanların gözü önündə sərgiləsinlər. İslamın bütün hidayət imkanlarını nümayiş etdirsinlər. Əlbət ki, bu onların üzərinə düşən vəzifənin tələbi idi. Hər bir xüsusi şərait xüsusi davranış tələb edirdi. Onlar vəzifəli idilər ki, bəşəriyyətə həmin şəraitə uyğun davranış örnəyi təqdim etsinlər. Yəni, bu məhdudiyyət şəraitin ortaya çıxardığı məhdud davranış örnəyindən doğurdu. Buna görə də Aşura hadisəsinin  və İmam Hüseynin (ə) özünün əks etdirdiyi mükəmməllik, əhatəlilik bais oldu ki, o, çırağa çevrilsin və bu çırağa baxan heç kim yolunu azmasın. Tufanlı dənizdə qərq olmasın. Başqa sözlə, İmam Hüseyn (ə) o adamlar üçün hidayət çırağıdır ki, cəhalət zülmətində məhv olurlar. O adamlar üçün nicat gəmisidir ki, dünya bataqlığında çabalayırlar. Buna görə də İmam Hüseynin (ə) 40-cı gününün ziyarətnaməsində oxuyuruq: "Pak qanını Sənin üçün axıtdı ki, bəndələrini cəhalət və sərgərdanlıqdan xilas etsin. Bir halda ki, dünyapərəstlər (dünyanın aldatdığı insanlar) onun əleyhinə birləşmişdilər"

("Bihar əl-ənvar", c. 98, səh. 331).

Çevirən: **Maqsud Sayıl**

# KƏNDİN KİTAB QƏBRİSTANI

**(hekayə)**

*Xatirə (memuar)*

*Yeni kitab oxumaq marağı məni kənd kitabxanasına sarı çəkdi. Düzü, kitabxanaya son gedişim 7-8-ci siniflərdə oxuduğum illərə qayıdır. O zaman tez-tez gəldiyim, binası çox da böyük olmayan kitabxana mənim üçün bir sehirli aləmə çevrilmişdi. Sanki dünyanın bütün sirləri, cildlənmiş kağızlar üzərində qara mürəkkəblə həkk olunmuşdu. Özümə ikinci ev sandığım kitabxanaya gəlib, oxuduğum hər kitabla xəyalımda qurduğum aləmə, xoş gələcəyimə yollanırdım...*

*Kitabxana kəndin mərkəzində, ətrafı qanbər daşlarla hörülmüş qəbristanın arxa tərəfində yerləşir. Gün ərzində qarşısından yüzlərlə adam keçir, lakin heç biri gözünün ucu ilə olsa belə bu binaya tərəf boylanmır. Daha dəqiqliyi ilə desəm, kəndimizdə gedilməyən, qapısı açılmayan bir yer varsa, o da buradır.*

*Gəlib kitabxananın qarşısında dayandım. Bir anlıq məktəb illərinə, acılı-şirinli xatirələrə sarı döndüm...*

*İçəridəki birçəkləri ağarmış kitabxanaçı qadın, övladlarının arxa çevirdiyi, illərlə yad etmədiyi anaya bənzəyirdi...*

*İçəri daxil olmağımla ağır, rütubətli qoxunun beynimi gizildətməsi bir oldu. Şirin röyamdan ayrıldım. Məktəbli eşqimdən əsər-əlamət qalmadı. İçərinin qəbristan qoxusu, rəngi saralmış divarın üzərini bəzəyən hörümçək torları cəhənnəm xofu yaratmışdı. Masa arxasında oturub, illərin həsrətini ürəyində gizlədən kitabxanaçı qadın ümidli gözlərini qapıya zilləyərək uzun xəyallara dalmışdı. Qapının körpə çığırtısına bənzəyən səsi, onu, canına "xərçəng" xəstəliyi kimi hopmuş həsrətdən xilas etdi. Amma təmkinini əldən verməyən qadın heç nə olmamış kimi yaşarmış gözləri ilə üzümə baxdı.*

*Üzərinə, bəlkə sovet dönəmindən yadigar qalmış toz-torpağın hopduğu kitablar, əzizləri tərəfindən yad edilməyən, üstünü mamır, kif bürüyən mazar daşlarına bənzəyirdi. Vaxtlı-*



*vaxtsız dünyasını dəyişmiş əsərlər, kəndin kitab qəbristanı... Bu vadidə, dünyaya yenicə göz açan, hələ səhifələri oxucu əllərində yaxşı-yaxşı bələnməyən kitablar axtarmaqdan vaz keçdim. Yolüstü anasına baş çəkən, hətta süzdüyü çayı belə içməyən oğullar kimi qadınla xudahafizləşib ayrıldım...*

*Hər halda, kənddə kitabxananın olması, ölü kitabların nəyisə xatırlatması, illər uzunu həsrətlə yaşayan dayanan, yeni kitab, oxucu vüsalı gözləyən kitabxanaçı qadının ümidli baxışları böyük təsəlli idi mənə.*

*Kitabxanaya gedişimdən bircə həftə keçmişdi. Yolum təsadüfən onun qarşısından düşdü. Gözlərimə inanmadım. Binanın qarşısına 10-15 nəfər adam toplaşmışdı. Kitabxananın qapısı önündə dayanmış yük maşını, içəridən qucaq-qucaq kitabların çıxardılıb maşına yüklənməsi, maraqlı bir səhnə yaratmışdı. Bu mənzərə, ölkəmizdə çoxlu oxucu kütləsinin olmasını, hələ üstəlik kitabların yük maşını ilə daşınmasını göstərirdi.*

*Ətrafda dayananların birindən məsələnin nədən ibarət olduğunu öyrəndim. Sən demə kitabxana boşaldılıb yerinə ayrı "xana" işə başlayacaqdı. Hər halda o, daha lazımlı olacaqdı. Amma bunun nə "xana" olacağını ehtimal edə bilmədim.*

*Kəndimizdə çoxlu sayda "xanalar" var: çayxana, pivəxana, qəssabxana və bir də əvvəllər xəstəxana üçün nəzərdə tutulan, lakin hansısa səbəblər üzündən tikilişi yarımçıq qalan binanın otaqları arasında fəaliyyət göstərən qumarxana.*

*Kitabxananın yaxın gələcəkdə hansı xanaya çevriləcəyini isə zaman göstərəcək.*

***Niyam Aqil***

# MƏHƏRRƏMLİK QEYDLƏRİ



**1**

Siyasi ədəbiyyatlarda qeyd olunur ki, hər bir insanın bir qiyməti var, belə ki, birini pulla, o birini məqamla, üçüncünü maşınla, dördüncünü şəhvətlə, beşincini təhdidlə və s. bu kimi şeylərlə alırlar. Ancaq imam Hüseyn (ə) Kərbəladakı hərəkəti ilə göstərdi ki, bəzi adamlar heç bir qiymətə alınası deyildir.

**2**

İmam Hüseyn (ə) öz qanı ilə göstərdi ki, zahirdə maddi məğlubiyyət ideyaların, planların, layihələrin məğlubiyyətini ifadə etmir. Əksinə, qələbə həmişə "haqq" olanladır. Baxmayaraq, fiziki olaraq yenilsə də. Başqa sözlə, ilk baxışdan nəticə məğlubiyyət kimi görsənsə də, son olaraq baxıldıqda qələbədən başqa bir şey deyil Hüseyn təcrübəsi.

**3**

Hüseyn təcrübəsində çoxsaylı insani mesajlar alır. Bu gün Hüseyndən danışanlar məhz bu mesajları insanlara transfer etməlidirlər. Ona görə ki, bu kimi mesajlar zamanın və məkanın fövqündə dururlar. Elə bu təcrübəni əsrlər boyu yaşadan da məhz həmin mesajlardır. Əfsus, bu gün Hüseyn adına qurulan yığıncaqlarda bu kimi insani mesajlar daha az müzakirə olunur.

**4**

Zənnimcə, Hüseynin (ə) və onun silahdaşlarının başından keçənlərə, Kərbəladakı olaylara "ağlamaq" təkcə ritual əməl deyil, əksinə, əslində, siyasi anlam ifadə edən bir əməldir.

Ağlamaq- bu kontekstdə baş verən olaylara etiraz deməkdir, həmin hadisənin fonunda oxşar hadisələrin yenidən baş verməsinə qarşı olduğunu bildirmək deməkdir. Ağlamaq bu mənada daim səhnədə aktiv qala bilmək üçün enerji toplamaq deməkdir.

**5**

Hüseyn (ə) 13 əsr öncə Kərbəla adlı səhrada bir ağac əkdi. Bu ağac sonradan çoxsaylı, rəngarəng meyvələr verdi, verəcək və verməkdədir. Bu gün həmin ağacdan dərib istifadə edə biləcəyimiz meyvələr aşağıdakılardır:

-İnsanlıq meyvəsi;
-Əxlaq meyvəsi;
-Şücaət meyvəsi;
-Səbr meyvəsi;
-Mərdlik meyvəsi;
-Qeyrət meyvəsi;
-Mehribanlıq meyvəsi;
-Əzmkarlıq meyvəsi;
-İzzət meyvəsi;
-Ləyaqət meyvəsi;
-Sədaqət meyvəsi;
-Ədalət meyvəsi;
-İnsaf meyvəsi;
-Fədakarlıq meyvəsi və s.



**6**

İslam tarixində bir çox olaylar baş versə də, "Aşura" kimi təsirə, effektə, bərəkətə sahib olan hadisə azdır. Bu olay, baş verdiyi gündən etibarən, tarix boyu həmişə bir qrupun lehinə, digər qrupunsa əleyhinə işləmişdir. Birinci qrupu ümumi xalq kütləsi, ikinci qrupu isə qeyri-səmimi siyasi qüdrətlər təmsil edir. Tarixin səhifələrini hər bir əsrdə, habelə günümüzdə vərəqləyərkən bunun şahidi oluruq.

### 7

Hüseyn təcrübəsini "gediş" və "qayıdış" olmaqla iki cür nəzərdən keçirmək olar. Gediş- indiki zamandan keçmişə doğru səfər etmək deməkdir. İnsan bu səfərdə Hüseyn təcrübəsini bir tarixi olay kimi nəzərdən keçirib, onu nəticə və hədəf müstəvisində təhlil edir. Ancaq qayıdışda insan keçmişdən indiki zamana səfər etməyə başlayır. Bu zaman artıq Hüseyn təcrübəsi sadəcə olaraq bir tarixi olaya deyil, əksinə, dəyərlər, prinsiplər, ruh, anlayışlar, meyarlar, həyat döyüntüsü və s. bu kimi ali nəsnələrə çevrilir. Əfsus, bir çoxları Hüseyn təcrübəsinə gediş gözü ilə baxıb, elə oradaca ilişib qalırlar. Bunun əksinə olaraq, elələri də vardır ki, onlar həmin təcrübəni qayıdış gözü ilə oxuyurlar. Bu iki yanaşma arasındakı fərq ondan ibarətdir ki, birinci yanaşmada insanın indiki zamanı gələcək zamana, ikinci yanaşmada isə onun indiki zamanı keçmiş zamanına çevrilir.

### 8

Bu gün modern dünyada yaşayan hər bir müsəlman öz dini və milli kimliyini qoruya bilməsi üçün bir sıra anlayışlara ehtiyac duyur ki, onun fərdi və ictimai davranışlarını tənzimləyə və kontrol edə bilsin. Hüseyn tərcrübəsində bu hədəfi həyata keçirə biləcək fundamental anlayışlar mövcuddur:

1. Ailə, cəmiyyət, ölkə və dünya müstəvisində zülm, haqsızlıq və qanunsuzluğa qarşı olmaq;
2. Din və vətən kimi həyati dəyərlər uğrunda şəhadət və candan keçmək;
3. Qadının səhnədə siyasi-ictimai aktivliyi;
4. Fərd və toplumda məğlubiyyətə qarşı əzmkar və iradəli olmaq şücaəti;
5. İnanca mənsubiyyət sadiqliyi;
6. Hədəfə nail olma istiqamətində səbrli olmaq və nəticələri tezləşdirməmək;
7. İctimai və fərdi müstəvidə islahat və reform;
8. Din və mübarizənin insani olması və hiylə məntiqindən uzaq olmaq;
9. Yararlı və səlahiyyətli rəhbərlik;
10. Prinsipial ağıl.

### 9

Hüseyn təcrübəsi göstərdi ki, insani münasibətləri sekulyar əxlaq konteksində də tənzimləmək mümkündür. Bu isə o deməkdir ki, bu gün modern dünyada cəmiyyətdəki insanların ideoloji fərqliliklərini göz önünə aldıqda, ortaq dəyərlərdən istifadə qaçılmazdır. Bu isə təkcə sekulyar əxlaq kontekstində həyata keçə bilər. Bu əsasla, sekulyar əxlaqın tapdanılması toplum içərisində təkcə xaos yarada bilər. Hüseyn təcrübəsində tarixin əbədi yaddaşına keçən "Əgər dininiz yoxdursa və axirət günündən qorxmursunuzsa, onda dünyanızda azad olun!"- deyimi deyilənləri bir daha təsdiqləyir.

### 10

Əxlaq fəlsəfəsində "Həyat yaşamağa dəyərmi?" sualına tarix boyu uç fərqli cavab verilib. Bəziləri həyatı hər nəyin bahasına olursa-olsun yaşamağa dəyərli hesab edirlər, bəziləri isə deyilənin əksinə olaraq, onu heç bir şəkildə yaşamağa dəyər hesab etmirlər. Üçüncü yanaşma isə fərqli yanaşaraq qeyd edir ki, həyat nə mütləq şəkildə yaşamağa dəyər, nə də mütləq şəkildə yaşamamağa dəyər. Əksinə, bəzi hallarda həyat yaşamağa dəyər, bəzi hallarda isə dəyməz. Hüseyn təcrübəsi üçüncü yanaşmanı müdafiə edir. Odur ki, İmam buyururdu:

-"Ölüm alçaqlıqdan daha yaxşıdır",

-"Mən ölümü yalnız səadət, zalımlarla yaşamağı isə alçaqlıq hesab edirəm", -"Görmürsüz ki, haqqa əməl edilmir, batildənsə çəkinilmir. Elə isə mömin doğurdan da Allahın görüşünə tələsməlidir",

-"Zillət bizdən uzaqdır!".

### 11

Kərbəla hadisəsi bizə iki fərqli təsvir aşılamaqdadır: ağ təsvir və qara təsvir. Bu hadisənin qara təsvirində zülm, haqsızlıq, ədalətsizlik, təcavüz, zorakılıq, hiylə, kələk və s. bu kimi qeyri-insani və qeyri-əxlaqi keyfiyyətlər özünü əks etdirir. Burada mütləq zülm var gücü ilə mütləq ədalətə qarşı çıxaraq, onu aradan aparmağa çalışır. Odur ki, batinində olan





bütün qeyri-insani, qeyri-əxlaqi keyfiyyətləri təzahür etdirir. Hədəf və vasitə – hər ikisi də şərrdir. Yəni həm nail olmağa çalışdığı hədəf şərrdir- kamil insanın qətli, həm də bu hədəfə çatmaq üçün istifadə etdiyi vasitələr şərrdir. Bu hadisənin ağ təsvirinə gəldikdə isə, onda ədalət, səmimiyyət, ciddilik, həqiqət, paklıq, sədaqət, doğruluq və s. bu kimi insani və əxlaqi dəyərlərin, keyfiyyətlərin şahidi oluruq. Mütləq ədalətin təzahürü olan Hüseyn (ə) öz mübarizəsində yalnız "xeyir"lə dolu davranışlardan çıxış edərək addımlamağa çalışır. Demək, həm hədəf, həm də vasitə- hər ikisi xeyir təməli üzərində inşa edilib. Hz. Zeynəbin "Kərbəlada gözəllikdən başqa heç bir şey görmədim"- deyimini məhz ağ təsvir fonunda anlamaq olar. Çünki bu hadisənin ağ təsvirində yalnız "gözəllik", qara təsvirində isə yalnız "çirkinlik" əks oluna bilərdi.

Kərbəlanı oxuyarkən, hər iki təsviri birgə oxumağı unutmamalıyıq.

## 12

Hüseyn təcrübəsi bir daha təsdiqlədi ki, insan dünya çətinlikləri qarşısında "Allahmərkəzli" olmayanacan dözüm nümayiş etdirə bilməz. Hər fiziki və ya metafizik ağrı-acı yalnız Ona sığınmaqla aradan qaldırıla bilər. Elə buna görə, Hüseyn mübarizə meydanında hey "İlahi, sənin razılığına razıyam, əmrinə təslimən, qəzavü-qədərinə səbr edirəm. Ey mənim Rəbbim, Səndən savayı məbudum yoxdur, ey pənahsızların pənahı!". – deyimini təkrarlayırdı.

## 13

Hüseyn təcrübəsində bütün ideologiya daşıyıcıları üçün dəyərli "dərs"lər var. Hamı ondan nəsə öyrənə bilər. Demək, Hüseyn təkcə bizə deyil, hamıya mənsubdur. Hətta bir ateist, aqnostik, deist belə bu təcrübədən müsbət nələrsə öyrənə bilər.

## 14

Hüseyn təcrübəsinin açar sözlərindən biri belədir: "Qanın Qılınca Qələbəsi".

## 15

Düzdür, insanlıq tarixində "Kərbala" hadisəsi kimi və hətta ondan da daha faciəli olaylar baş verib. Bu, əslində, məsələyə fiziki tərəfdən yanaşmaqdır. Ancaq unutmamalıyıq ki, hər bir olayın iki tərəfi olur: fiziki və metafizik. Kərbəla hadisəsini digər faciəvi tarixi olaylardan fərqləndirən onun məhz metafizik tərəfləridir. Hüseyn (ə) adi bir şəxsiyyət deyildi. O, Allahın yer üzərində bəşəriyyətə təyin olunmuş Xəlifəsi idi. Bu isə onun bəşəriyyətlə Allah arasındakı bilik və feyz vasitəçisi olduğu anlamına gəlməkdədir. Belə olan halda, Kərbala hadisəsini bu ilahi paradiqmada adi faciəvi hadisə kimi qələmə vermək nə qədər məntiqli olardı? Odur ki, bu hadisəni adiləşdirənlər, əslində, məsələnin metafizik tərəfini görməzdən gəlib, onun mahiyyətini təkcə fiziki yöndə məhdudlaşdırmağa çalışırlar. Bu isə ilahi paradiqmada məqbul hesab oluna bilməz.

**Emin İmanlı**



# KƏRBƏLANI
## TANIYAQ VƏ TANITDIRAQ

**Bildiyimiz kimi qarşıdan məhərrəmayı gəlir. Hansı ki, hüzün, kədər ayı kimi xatırlanır. Ona görə ki, məhz bu ayda Kərbəla faciəsi baş verib. İmam Hüseynin (ə) və əzizlərinin mübarək qanı bu haram ayda axıdılıb. Deməli məhərrəm ayının qəhrəmanı İmam Hüseyndir (ə). Biz də elə İmam Hüseyndən (ə) söz açmaq istəyirik.**



***- İmam Hüseyni (ə) necə tanıyırsınız və ya onu necə tanıtdırardınız?***

- İmam Hüseyn (ə) deyəndə kamil insan nümunəsi, ideal varlıq, insanlığın mükəmməl təzahürü başa düşürəm. Mənim üçün o hər şeydən öncə sadaladığım səciyyələrə sahibdir. İmamlıq, şəhidlik və Peyğəmbərin (s) nəvəsi olmaq kimi yüksək dəyərlər mənim üçün ikinci planda gəlir.

Amma o həzrəti başqalarına tanıtdırmaq istəsəm, Əziz Peyğəmbərmizin (s) bir gözəl kəlamına istinad edərdim. O həzrət İmam Hüseyn (ə) barədə belə buyurur: "Həqiqətən, Hüseyn hidayət çırağı və nicat gəmisidir" Bu kəlam qısa olmasına rəğmən, özündə böyük bir mənanı ehtiva edir, hansı ki mənim İmam Hüseyni (ə) tanımağımda da bu hədisin payı var. Hidayət və qurtuluş insanın həqiqi ehtiyaclarıdır, hərçənd bəziləri bundan qafildir. Başqa sözlə, yaxşıya, səadətə yönəlmək, pislikdən, bədbəxtlikdən yaxa qutarmaq insanın təbiətinə uyğundur. Bunun ən mühüm nümunəsi isə cənnət və cəhənnəmdir. Hədisə əsasən, insan hidayət və qurtuluş istəyirsə, İmam Hüseyn (ə) bunun təminatçısıdır. Necəliyi isə başqa bir macal tələb edir. Xülasə olaraq, deyə bilərəm ki, onu tanımaq, tanıtdırmaq, yaşatmaq, araşdırmaq, başqalarına çatdırmaq nəticə etibarı ilə insanın hidayət və qurtuluşuna səbəb olur.

***- Hüseyn (ə) adı sizdə hansı təəssüratı yaradır?***

- İmam Hüseyn (ə) təkcə məndə deyil, bütün Hüseyn (ə) aşiqlərində, o cümlədən Əhli-beyt (ə) sevərlərdə dərin hüzün yaradır. Bu hüzün şirindir və digər hüzünlərə bənzəməz. Digər hüzünlər insanı depresiyaya, mənəvi böhrana, ruh düşkünlüyünə, ümidsizliyə və s. sürüklədiyi halda, İmam Hüseyn (ə) hüznü tam əksini edir. Çünki müqəddəsdir, müqəddəs olduğu üçün insanda mənəvi ab-hava yaradır, sanki İmam Hüseynin (ə) mənəviyyat yolunda atdığı addımların izinə düşürsən, az da olsa, o şəxsə mənəvi yaxınlaşırsan.

***- Sizcə İmam Hüseynə (ə) qarşı olan sevgi nədəndir?***

- İmam Hüseynə (ə) olan sevgi insanın fitrətindən, təbiətindən doğur və təbii olaraq, ağıl, din və əxlaq kimi amillər də bunu gücləndirir. Ona görə ki, insan fitrətən kamilləşmək, ucalmaq istəyir, başqa sözlə nöqsanlarından qurtulmaq istəyir. Yəqin az adam tapılar ki, bu təkamül yolunu başa vurmuş olsun. Bu üzdən insanlar həyatında hətta bir cəhətdən təkamülə çatmış insan görəndə, məsələn idman növü üzrə çempionla qarşılaşanda, şəxsən tanımasa belə ona məhəbbət bəsləyir. İndi belə bir şəxs hər cəhətdən, xüsusilə insanlıq baxımından kamil olduqda ona məhəbbət, sözsüz ki, ən ali dərəcədə olacaqdır. İmam Hüseyn (ə) məhz belə bir şəxsiyyətdir. Deməli, o həzrəti yalnız insanlıqdan məhrum olanlar sevməzlər. Digər tərəfdən İmam Hüseynə (ə) sevginin kökündə onun bəzi müqəddəs və əvəzsiz addımları durur. Yolunu canı bahasına davam etdirməsi, bu yolda əzizlərindən, hətta ailəsindən keçməsi, haqq ola-ola ən məzlum şəkildə şəhid edilməsi ümumi insanlarda ona qarşı alovu sönməz sevgi yaradır. İnsanlar hər il kərbəlanı anmaqla bu qəmli sevgini daha da şiddətlənir, əks mövqeni təmsil edənlərə, yəni yezidlərə qarşı nifrəti dərinləşir.

***- İmam Hüseynə (ə) qarşı olan sevginizi necə izah edərdiniz?***

- İmam Hüseynə (ə) sevgim heç bir dillə izah oluna bilməz. Mənə görə qəlbin öz dili var. Amma bu sualı cavablandırmaq lazım gəlirsə, deyərdim ki, İmam Hüseynə (ə) sevgim insanlığa, müqəddəsliyə, Allaha olan sevgim qədərdir. Çünki, İmam Hüseyn (ə) mənə görə insanlığın bariz nümunəsi, Allahın xüsusi dəyər verdiyi şəxsiyyət və yer üzündə ilahi nümayəndədir.

***- Niyə İmam Hüseynə (ə) hər il əza saxladığımız halda yenə də, özümüzü ona borclu bilirik?***

- Təbii ki, borclu öz borcundan çıxmayınca, özünü həmişə borclu sayır. Yəqin ki, bizim İmam Hüseyn (ə) üçün gördüklərimiz o həzrətin əməyi qarşısında heçə bərabərdir, ya da həddən azdır. Bu üzdən biz onun etdiklərinin mislini etməyincə, yaxud hədəfinə layiqincə xidmət etmədikcə özümüzü o həzrətə borclu hiss edəcəyik.

**(Xəyal Tofiqoğlu ilə müsahibə).**

# İSLAMOFOBİYA NƏDİR?

## NECƏ YARANIB? TƏZAHÜRLƏRİ NƏDİR?

**İslamofobiya fenomeni son dövrlərdə ortaya çıxan və getdikcə daha geniş və əhatəli bir radius alan bir termindir. Bu fenomeni daha yaxşı anlamaq üçün bir sıra müqəddimə məlumatlar var ki, ilk öncə onlar tədqiq olunmalıdır. İslamofobiyanın nə olduğunu, nələri özündə ehtiva etdiyini və necə oldu ki, bu cür bir termin yarandı kimi sualların cavablarının tapılması məhz bu müqəddimə bilgilərdən keçir.**




### İslamofobiyanın ilk təzahürləri

İslamofobiya termini, yəni "İslamdan qorxu", araşdırmaçıların qeyd etdiyinə görə, ilk dəfə 1991-ci ildə istifadə edildi. 1997-ci ildə isə İngiltərədə "Hamımız üçün bir meydan oxuma" adlı məqalənin nəşr olunmasından sonra bu fobiya ictimailəşdi. Məqalədə İslam düşmənliyi və bütün müsəlmanlara qarşı antipatiya və nifrət əks olunurdu. İslamofobiyanın qloballaşması isə, təbii ki, 11 sentyabr 2001-ci ildə ABŞ-ı hədəfə alan məlum terror hücumlarından sonra qloballaşdı.

Mütəxəssislər bu terminin termin olaraq yaranmasını Qərb cəmiyyətindəki ksenofobiya (yəni özündən olmayanı kənarlaşdırma) ilə əlaqələndirirlər. Lakin 21-ci əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarında baş vermiş məlum "11 sentyabr" hadisəsindən sonra bu terminin radiusu daha da genişləndi və artıq ədəbiyyatlara, leksikonlara daxil olmağa başladı. Bütün bunlara baxmayaraq, bu, sadəcə prosesə bir ad vermə mərhələsi idi. Yəni bu terminin 90-ların əvvəllərində yaranması o anlama gəlmir ki, islamofobiya halları da məhz elə 90-ların əvvəlindən vüsət tapmağa başladı.

Bu termin ilk dəfə Avropada meydana gəldiyinə görə Avropa cəmiyyətinin tarixi və özəlliyinə xüsusi toxunmaq lazımdır.

### Avropa cəmiyyətinin özünümüdafiə instinkti

Türkiyə araşdırmaçılarından biri özünün islamofobiya ilə bağlı araşdırmasında qeyd edir: "Avropa, əslində, güman edilənin əksinə olaraq, heç də üzərində mötəbərliyi yüksək olan millətlərin yerləşdiyi bir qitə deyil. Yəni bu qitənin genefondu heç də ən etibarlı millətlərdən təşkil olunmayıb. Eyni zamanda Avropa yenə modernizmin "dindən kənar cəmiyyət" şəklində yaşandığı bir yerin adı da deyil. Avropa mühafizəkar, tarixdən gələn travmalar (zədələr) səbəbiylə həssas cəmiyyətlərdən meydana gələn bir qitədir". Hətta daha da xüsusiləşdirib, demək olar ki, 50-ci illərdən sonra Avropa siyasi inteqrasiya məqsədi ilə hərəkət edən Avropa Birliyinin özüdür. Və bu da qeyd olunmalıdır ki, Avropanın inteqrasiya olunmasında, Avropa dövlətlərinin yaxınlaşmasında "təməl qorxu və qayğılar" ən əsas faktordur.

Xatırladaq ki, Avropa Birliyinin yaranma tarixində 1950-ci illərdə İkinci Dünya Müharibəsinin gətirdiyi problemlər, bu qitədə Avropa millətlərinin yenidən bir-biri ilə döyüşməməsi, eyni zamanda kommunizmin siyasi və hərbi təzyiqinə qarşı hamının və həm də həmişə birlikdə etiraz etməsi üçün özünümüdafiə əməkdaşlığı təməl prinsip rolunu oynadı. Bu gün Avropada artıq almanlar fransızlarla müharibə halında deyildirlər, katoliklər protestantları kənarlaşdırmır. Bu gün Avropada inkivizisiya məhkəmələrində katolik olmayanlar yandırılmır. Ona görə də kənarlaşdırılacaq yeni bir qüvvə lazım idi. Eyni zamanda bu subyekt "ekstremist" və "təhdidkar" olmalıdır. Və bu yarlıq çox təəssüf ki, İslama yapışdırıldı və İslam müasir Avropa cəmiyyətinin özünümüdafiə instinkti ilə real təhlükə olaraq qələmə verildi.

### Sekulyarlıqdan uzaq İslam və fobiya

İslamofobiya termininin Qərbdə meydana çıxmasının bir kökü İslamın sekulyar təfəkkürdən uzaq bir din anlayışını ortaya atmasından qaynaqlanır. İslam - Qərbin qəbul etdiyi və ya qəbul etmək istədiyi din anlayışı ilə heç cür bir araya sığmayan bir dindir. İslam dini insan yaşamının hər yönünü əhatəsinə alan konseptual bir din olduğuna görə və eyni zamanda insan yaşamı üçün öz konsepsiyasını təklif edən yeganə din olduğuna görə Qərbin "oyun qaydaları"na uyğun gəlmir. Bura insanın bütün yaşamı daxildir. Təsadüfi deyil ki, "mülayim İslam", "liberal İslam" anlayışları, əslində Qərbə sərf edən "İslam"dır. Məsələn, Avropa Birliyi İslam dünyasında siyasi həyatın gələcəkdə sıx bir şəkildə "siyasi İslam" çərçivəsində inkişaf edəcəyini düşünür. Eyni zamanda "mülayim İslam" anlayışının hal-hazırda bəzi regional ölkələrdə təsirli olduğu və təsirli qalacağı istiqamətində qiymətləndirilmələr aparılır. Əslində, bu dünyagörüşü islamofobiyanın bir təzahürüdür və bütün İslam dünyasını tək bir blok olaraq görmə arzusudur. Buna görə də həqiqi İslam müqabilində elə projelər hazırlanır ki, bunlar islamofobiya üçün münbit şərait yaratsın.

Dinin yaranması ilə bağlı aparılan araşdırmalar göstərir ki, Avropada "elmin atası" sayılan filosoflar və sosioloqlar dinə İslamın dediyi kimi tərif verməyiblər. Avropa elmini durğunluqdan çıxaran insanların hamısı dinə bir ritual məsələləri özündə ehtiva edən və Tanrı-insan münasibəti çərçivəsindən baxırlar. Yəni bu baxışa

görə, dinin sosial münasibətlərə aidiyyəti yoxdur, din sadəcə insanın bir sıra fərdi məsələlərindən ibarətdir ki, özünə və Tanrısına aidiyyəti var. Bu baxımdan Qərbin din maraqlarına uyğun gəlməyən İslamdan bir qorxusu var. Məhz buna görə də biz bu gün tez-tez “siyasi İslam” fenomeni ilə qarşılaşırıq. Qərbin və Amerikanın bir sıra dairələrinin yaratdığı “siyasi İslam” fenomeni onlara münbit şərait yaradır ki, İslamdan və müsəlmandan “ekstremist” düzəltsinlər. Və “binladenlər”, “talibanlar” da bu projenin digər bir tərkib hissəsidir. Əslində qorxu - həqiqi İslamdandır. Amma yuxarıda sadaladığımız həqiqətləri öz cəmiyyətinə və dünyaya sırımaqla dünyada “siyasi İslam” xofu yaradırlar. Buna görə də bir sıra sadə insanlar arasında İslama qarşı duyulan fobiya da məhz həmin




imperialist güclərin yaratdığı “siyasi İslam” fenomenindən qorxmaqdır. Siyasi və sosial mənada islamofobiya, Qərbin rədd etdiyi dəyərlər şəklində şərh olunur. İslam ağılçılığın fanatizmə məğlub olduğu, cinsi ayrı-seçkiçiliyin güdüldüyü primitiv və barbar bir düşüncə sistemi olaraq təqdim edilir. Həmçinin bu yanaşmaya görə, İslam ektremizmə və terrora təkid edən təhdidedicidir. İslamı bir siyasi axın və ya ideologiya olaraq görən bu yanaşma, işsizlik, şiddət və bənzəri mənfi halları İslam və müsəlmanlar ilə simvolizə edir. Buna görə də “islamofobiya” terminindəki “fobiya” sözü də burada özünün psixoloji anlamından əlavə, siyasi anlamda işlənib. Yəni İslam sosial sferada “toplum və millətlərlə ziddiyyətdədir” kimi mənalandırılıb.

### İslamofobiyanın formalaşmasının əsas səbəbləri

Əslində, yuxarıda qısa şəkildə bunun bir neçə səbəbinə toxunduq. Bir daha konsepsual şəkildə aşağıdakı səbəbləri sıramalaq mümkündür.

### İslamın Avropaya yayılması

İslamofobiyanın ən sərt şəkildə Avropada hiss edilməsinin səbəblərindən biri Əməvi, Abbasi və Osmanlı dönəmlərində İslamın Avropaya doğru genişlənməsi və kilsəni öz nəzarəti altına alması idi. Çünki bu hal Avropa cəmiyyətində bir travma və zədə yaratdı. Və müəyyən mənada Qərbdə İslamdan qorxma kimi bir hal meydana gətirdi. Xüsusilə Balkan yarımadasında məskunlaşan və Qərbi Avropadakı immiqrant müsəlman əhalinin artımı islamofobiyanın şüur altından çıxaraq, aktual həyata yerləşməsi ilə nəticələndi.

### İslamı yetərincə tanımama

Qərb İslamla bağlı elmi səviyyəsi çox aşağı olan və mötəbər olmayan mənbələrdən əxz olunmuş səthi məlumatlara malikdir. Çünki Qərbin İslamla bağlı məlumatları şərqşünaslıq səviyyəsində, həm də qərblilərin özləri tərəfindən aparılan araşdırma və təqdim edilən məlumatlarla məhdudlaşır. Bunun ən bariz nümunəsi olaraq, Amerikada afro-amerikanların hüquqlarının müdafiəçisi, şəhid Malkolm X-in həyatını göstərmək olar. Belə ki, Malkolmun İslam haqqındakı düşüncələri məhz Məkkəni ziyarət edəndən sonra kamilləşir. O, bu səfərdən sonra anlayır ki, İslam Amerikada ona təqdim edilən “din” deyil, kamil və ümumbəşəri bir dindir.

### Din və təmsilçi anlayışlarının eyniyyəti

İslamofobiyada bütün İslam dünyası tək bir vahid olaraq qəbul edilir və bütün müsəlmanlar tək tip olaraq qiymətləndirilir. Müsəlmanın yalnış addımı İslamın adına yazılır. Bundan əlavə, özlərini terror qruplaşmaları hesab edənlər və İslam dinini fitrətə və ağıla zidd şəkildə təqdim edən firqələr də məhz “İslam budur” kimi qiymətləndirilir. Torkvemadanın katolik olmayanları tonqalda yandırmasının xristianlığa aid olmadığı kimi, eyni zamanda alternativ olaraq bu cür demək olar ki, Amerikanın demokratiya müdafiəsi adı altında İraqda, Əfqanıstanda neçə milyon insanı öldürməsi demokratiya adına yazılmadığı kimi, bu tip davranışların da İslam adına yazılması yalnışdır. Bir dəfə Türkiyə baş naziri Rəcəb Tayyib Ərdoğan bu mövzuda bir çıxış etmişdi. O, çıxışında islamofobiyaya toxunaraq, bildirmişdi: “Bugünkü bir neçə pis nümunədən yola çıxaraq, bütün bir kütləni, bütün bir inanc qrupunu, bir dinin və mədəniyyətin bütün mənsublarını mühakimə etmək - son dərəcə səhvdir və təhlükəlidir. Öz dəyər mühakimələrini, öz həyat tərzini başqalarına sırımaq nə qədər səhvdirsə, başqalarının həssaslıqlarını görməməzlikdən gəlmək də eyni dərəcədə səhvdir. Korkoranə bir Qərb düşmənliyi nə qədər səhvdirsə, anti-semitizm nə qədər səhvdirsə, İslamı terrorizmlə yan-yana xatırlamaq da, İslamofobiya da o qədər səhvdir”

### Müsəlmanlarda passionarlığın artması

Şərqdə baş vermiş İslam hərəkatı qələbə qazandığı ilk günlərindən etibarən dünya müsəlmanları arasında “dini şüur”, “agahlıq” və “İslam kimliyi”nin meydana çıxmasına səbəb oldu. Ümumiyyətlə, müsəlman dünyasında passionarlığın meydana gəlməsi, təhərrüklülüyün, bir canlamanın meydana gəlməsi islamofobiyanın güclənməsinə zəmin yaradan amillərdəndir.

**Emin Nasir**



# PESSİMİZM

**"...Və Allahın rəhmətindən məyus olmayın, çünki Allahın rəhmətindən yalnız kafirlər məyus olarlar!"**
**(Yusif, 87)**




Pessimist xarakterli insan daim şikayətçidir. Cəhd etmir. Əzmsizdi, heçnə üçün mübarizə aparmır, o, hər cür tərifi rədd edir, onu qeyri-səmimi sayır. Özünü bəyənmədiyi üçün heç kimi sevə bilmir. Bütün həqiqi mənada deyilən sözlərə də təsəlli xarakterli yanaşır deyə inanmır... Bu adam xaraktercə pessimistdir.

Bir də var pessimist dünya görüşü. Bu artıq xarakter deyil, bir dünya görüşüdür. Yəni, narazı xasiyyət kimi, keçici duyğu kimi, hal kimi pessimistlik ayrı şeydi, fəlsəfi konsepsiya kimi, dünyagörüşü kimi pessimizm ayrı. (Əslində çox cüzi fərqləri var) Fəlsəfi konsepsiya kimi pessimizmin qısa ifadəsi budur: Bu dünya pisdir, daha doğrusu, ən pisdir və bundan da pis olan odur ki, bu pis dünya heç vaxt düzələ, yaxşılaşa bilməyəcək. Məsələn, Kamyuya görə, dünya ümumiyyətlə, insanın xoşbəxtliyinə uyğun yer deyil!

Bunun qarşısında isə optimizm dayanır. Optimist dünyabaxışa görə isə, dünya mümkün olan dünyaların ən yaxşısıdır, əlasıdır, belə ki, bundan yaxşısı ola bilməzdi –Leybnits belə deyir.

İlk öncə gəlin Pessimizmə fəlsəfi konsepsiya kimi baxaq.

Bəzi Fəlsəfəçilər elə düşünür ki, dinin də dünyagörüşü pessimizmə köklənir. İslami hədislərdə keçən, dünyanı pisləyən bütün hallar pessimist dünyagörüşü kimi dəyərləndirilir. Məsələn, hədislərdə keçir ki, "dünya mömінin zindanıdır!"

Elə bircə bu hədisi götürsək və başqa bütün hədislərdən qoparılmış surətdə baxsaq doğrudan da belə görünür! Baxın, dinlə bağlı problemlərin əsası buradan qaynaqlanır, dini mətnlərə yarımçıq yanaşmadan. Bəzən belə hallarda inanclıların özü də azır. Məsələn, bu hədisi eşidən dindar düşünür ki, həqiqi dindar olmaq üçün dünyanı özünə zindan etməlidir. Ömrü boyu dünyanı özünə zindana çevirməklə məşğul olur. Əslində isə İslam təlimləri reallığı əks etdirir, pessimizmi deyil. Reallıq budur ki, dünya kamil insan üçün (duyarlı, ağıllı, fədakar, başqalarını düşünən insan üçün) bir zindandan ibarətdir. Əlavə çabaya ehtiyac yoxdu, yetərincə ağıllı və qəlbli insansa dünya sənin üçün mənəvi zindana çevriləcək.

Gəlin bu dünyamızı bir rəsm sərgisi kimi seyr edək; Bir tərəfdə hər səhərini atasının gətirdiyi xoş ətirli güllərlə açan uşaq, bir tərəfdə sabahını -atasının "düşməninin" açdığı öldürücü güllələrlə qarşılayan uşaq tablosu. Bir rəsmdə "Tom i Cerri" multfilminə baxıb uğunduğundan göz yaşları axan uşaq, (Oğlum hər elə güləndə mənim içim ağlayır. Axı niyə bütün uşaqlar belə gülməsin?) bir rəsmdə isə anasının ölmüş cəsədi üstündə oturub ac olduğunu bildirmək üçün göz yaşı axıdan körpə...

Axı bir nəfərin (məsələn, Kriştiano Ronaldo) topu yaxşı oynatdığına görə milyonlar dollar qazanması, (absurdizm?!) o birisinin isə öz elmi işini nəşr etdirmək üçün beşcə manat tapa bilməməsi bizim bu dünya sərgisində sərgilənən tablodu.

Din bütün bunlara görə dünya zindandı deyir. Bu realizmdir, pessimizm deyil. Amma din pessimizm dünyagörüşündə olduğu kimi, demir ki, dünya düzələ bilməz. Din deyir ki, dünyanı bu hala insan özü gətirib və o özü də xilas etməlidir! ("Sizə çatan hər bir müsibət öz əlinizin bəhrəsidir..." – Şura, 30)

Yarımçıq fəlsəfəçilərdən biri bu dəfə İ. Nəsimiyə ilişir: "Dünya duracaq yer deyil, ey can, səfər eylə! –deyən klassik pessimistlik, zəiflərin və fərarilərin pessimizmidir."

Hansı klassikimizi anlayıblar ki, Nəsimini də anlayalar?! Burda "səfər" ruhun səfəridi – dünyaya bağlanmamağıdı. Nəsiminin dindən qaynaqlanan təlimləri bağlanmağı qadağan edir, xüsusi ilə dünya ("Dünya" sözü ərəb sözüdü, tərcüməsi, əskik, alçaq deməkdir) kimi duracaq yer olmayan bir məkana. Bu fərarilik deyil, reallığa çağırışdı. Kim dünyanı tutub qalıb ki?!

Pessimizmdə təlim yoxdu, təslim var. Yəni sən bu hala yenilirsən. Dində isə dünyanı, bəşəri düzəltmək üçün təlimlər var. Demək dini dünyagörüş pessimizmə köklənməyib.

Ümumiyyətlə dini baxışlarda incə məqamlar var, dostlar, onları ayırmaq üçün çox diqqətli olmaq lazımdı. Tükü-tükdən ayırd edə bilən beyin lazımdı

ki, malı mala qatmasın. Bəzən bu incə məqamlar qərəzli formada qatışdırılır. Məsələn, bir var özünə əzab verib və bu əzabdan həzz almaq. Bu Mazoxizmdir! Özünə əzab verib həzz almaq anormal haldı. Din bunu haram sayır. Bir də var kimin üçünsə sevə-sevə əzab çəkmək. (məsələn, ata min zülmə qatlaşır ki, övladı ac qalmasın, yaxşı oxusun və s.) Bu isə bir dəyərdir, böyük ürəyin göstəricisidir! Din ikincini qiymətləndirir, yarımçıqlar isə birincini də dinin adına yazırlar.

Baxın, Pessimizmi bir psixoloji hücum kimi də dəyərləndirmək olar. Bir-iki kəlmə də bu haqda yazaq. Böyük qüdrətlər kiçik dövlətləri rahatlıqla işğal edə bilmək üçün və yaxud, despotlar, tiranlar, totalitar rejimlər öz xalqlarına uzun müddət ağa kəsilə bilmək üçün ilk öncə oranı mənəvi və psixoloji silahlarla psixoloji hücuma məruz qoyurlar. O psixoloji silahlardan biri də Pessimizmdir. -"Biz nə edə bilərik ki?!" düşüncələri..."Dövlətlə dövlətçilik etmək olmaz!" psixologiyası yəqin ki SSSR-in öz ömrünü uzatması üçün qafqaz xalqlarının beyninə yeritdiyi psixologiya idi. Uğurlu da alınmışdı. Pessimiz elə dağıdıcı silahdır ki, bir xalqı uzun müddət keyləşdirə, onu hər hansı bir riskdən saxlaya bilir. V. İ. Lenin bunu dinin adına çıxmışdı amma gördüyünüz kimi, əsl tiryək pessimizmdi.

Fərdi pessimizmdə də belədir. İnsan donur. Depressiya özü də pessimizm dünya görüşünün məntiqi nəticəsidi. İnsanı keyləşdirir. Pessimizmə yoluxmuş insan edə biləcəyi bütün cəhdləri indidən uğursuz sayır, özünü bütün mübarizələrdə bu başdan məğlub hesab edir. Eyni ilə tanınmış qırğız yazıçısı Çingiz Aytmatovun "gün var əsrə bərabər romanında" keçən dəvənin hekayəsi kimi;




Turist Afrikada o boyda dəvənin kiçik bir dirəyə bağlandığını görür, təəccüblənir: - bu ki cəmi bircə dəfə başını yellətməklə bu dirəyi kökündən qopara bilər, bəs niyə etmir? –deyir. Axır ki, yerli əhali vəziyyəti ona izah edirlər. Sən demə Afrikada belə bir adət var, dəvə təzə doğulandan (hələ gücsüzkən) onu davamlı olaraq elə kiçik dirəklərə bağlayırlar və dəvə az qüvvəsi ilə nə qədər dartınsa da dirəyi sındıra bilmir və get-gedə dəvədə belə bir psixologiya formalaşır: - mən bu dirəyi sındıra bilmərəm. İndi böyüyüb, bir cəhdlə 10 belə dirəyi kökündən qoparar amma o köklü psixologiya onu bu cəhddən saxlayır. Baxın, dostlar, pessimizm belə olur!

Kiçik haşiyə: (Biraz dincələk!)

Bir pessimistlə rastlaşdıqda sizi də öz mənfi halıyla yükləməsin deyə onun pessimist olma səbəbinin köklərini tapmağa çalışın.

Pessimist insan həmişə səbəb tapacaq. Ola bilər ki, bu insan nə vaxtsa neqativ təcrübə yaşamışdır, onu kimsə (sevgilisi və s.) aldatmış, atmış, nəticədə isə o həyatda təəssüflənmiş, həyatından küsmüş və fəlsəfiçilik edib bir ümumi deviz də çıxarmışdır: "Heç kimə (heç bir kişiyə və ya heç bir qadına) etibar yoxdur!" Ona sadəcə bunu başa salmaq lazımdır ki, bir nəfərin dönük çıxması bütün dünya insanlarının etibarsızlığı anlamına gəlmir, axı hələ dünyada onun sınamadığı altı milyard doqquz yüz doxsan doqquz milyon doqquz yüz doxsan doqquz min adam var...

Qeyd: Bu ayə Yəqub peyğəmbərin (ə) öz oğullarını Misirə yollayarkən dediyi sözü hekayət edir. "Gedin və Yusifi axtarın və Allahın rəhmətindən məyus olmayın. Çünki Allahın rəhmətindən yalnız kafirlər məyus olarlar!" Bu sözlər Yəqub (ə) –a aiddi. Necədə ümidverici sözlərdi. Yusifin (ə) İllər uzunu ayrılığı o nurani insanın ümidini öldürə bilmir. Gözünün ziyasını da itirir amma ümüdü günü-gündən daha çox parlayır.

Nədir bu ayənin bizə olan hekayəti?! Bu ayənin bizə olan hekayəti məhz budur:

Ümüdsüzlük kafirlərin – Allahları olmadıqlarını sananların işidir. Heç vaxt gec deyil, sənin heç nəyin olmaya bilər amma möcüzələr yaradan Allahın var.

Baxın, Quran teoriya verməklə kifayətlənmir, praktik və tarixi misallar da çəkir bunun üçün. Məgər sənin halın qardaşları tərəfindən quyunun dibinə atılmış balaca Yusifin (ə) halından betərdi?! Yoxsa ölümcül bir xəstəliyə yoluxmuş Əyyubdan (ə) da pis haldasan...?!

Onlar xilas oldular çünki inamlarını itirmədilər. Mübarizə etdilər, dözdülər, özlərini buraxmadılar. Bəli, qorxmayan insan yoxdu, qorxusuna qalib gələn insan var. Onlar qazanmaq üçün qorxularını yendilər. Sən də yenməlisən bütün bu ümüdsüzlüyünü və "ya Allah" deyib hərəkətə keçməlisən!

Konfutsi: " Oturub hey qaranlığı lənətləməkdənsə qalx kiçik bir şam yandır!"

**İlqar Kamil**

# İmam Hüseyn (ə) matəminin mənfiləri

Şübhəsiz, İmam Hüseyn (ə) adı ilə bağlı olan əzadarlıq mərasimləri Əhlibeyt ardıcıllarının böyük əlamətlərindən biridir ki, tarix boyu bu məzhəb dəyərlərini qoruyub saxlaya, nəsildən-nəslə ötürə



bilmişdir. İmam Hüseyn (ə) rəvayətlərdə də deyildiyi kimi İslam həqiqətinin yaşaması amilidir. Başqa sözlə, nəql olunmuşdur ki, (Peyğəmbər (s) buyurmuşdur) “Hüseyn məndən, mən də Hüseyndənəm”. Bu ibarənin izahı olaraq deyilir ki, Hüseyn (ə) Peyğəmbərin (s) nəvəsidir. Peyğəmbərin (s) ondan olması ifadəsi isə həqiqi İslamın təcəlla etdiyi Əhli-beyt (ə) məktəbinin İmam Hüseynlə (ə) yaşayacağına eyham vurur. Bu məktəbin yaşaması da həmin məclislər, matəm mərasimləri və İmam Hüseynə (ə) diqqət vasitəsilə gerçəkləşmiş və indi də gerçəkləşməkdədir. Amma bu məclisləri keçirməyin önəmi ilə yanaşı əslində bu, İmam Hüseyn (ə) məktəbi ilə, ümumilikdə din həqiqətləri ilə, xüsusi olaraq, imamətlə bağlı məsələlərlə daha çox tanış olmaq üçün bir fürsətdir. Amma nəzərdən qaçırmaq lazım deyil ki, bu mərasimlərin digər mədəni tərəfləri də İmam Hüseyn (ə) dəyərləri və ideyalarına uyğun olmalı, İslam meyarları ilə heç bir ziddiyyət təşkil etməməlidir. Bu növ mərasimlərdə diqqət olunması zəruri olan məsələlərdən biri haramlardan çəkinməkdir. İmam Hüseyn (ə) “yaxşılığa əmr və pisliyə qadağa” uğrunda şəhid oldu. “Yaxşılığa əmr” insanları yaxşı işlərə sövq etmək, “pisliyə qadağa” isə xalqı pisliklərdən çəkindirməkdir. Buna görə də İmam Hüseyn (ə) məclisləri elə olmalıdır ki, bu məclislər özləri “yaxşılığa əmr və pisliyə qadağa” prinsipinin bir nümunəsi olsun.

Bu növ məclislərdə həm iştirakçılar, həm təşkilatçılar, həm də natiqlər məsuliyyət daşıyırlar. Hamı İmam Hüseyn (ə) ideyalarını qorumağa məsuldur. Hər biri ayrı şəkildə, hər kəs öz mövqeyinə, yerinə uyğun məsuliyyət daşıyır. Bu növ məclislərdə din maarifindən danışan natiqlər bunu xalqa elə çatdırmalıdırlar ki, insanların dini bilgisi artsın. Bununla yanaşı onların dini həqiqətlərə inamı güclənsin. İslamda dini həqiqətlər dəyərlərə, rasional meyarlara əsaslanır. İslam ağıl dini, zəka dini, idrak və ziya dinidir. Cəhalət, xurafat və əfsanə dini yox. Buna görə də insanlara verilən məlumat düzgün islami məlumat olmalıdır. Əgər İslam yanlış şəkildə bəyan olunarsa, insanlara yanlış bilgilər verilərsə, bu özü bir növ “pisliy”i yaymağın nümunəsi və bir növ İmam Hüseyn (ə) ideyalarına zidd olacaq.

Əgər bu məclislər xurafatları yayarcasına, yanlış mətləblər təbliğ edərcəsinə təşkil olunarsa, insanların inamı sarsıyar, mütəfəkkir və ziyalı nəslimiz bu növ məclislərə etinasız yanaşar. Bu, İmam Hüseyn (ə) ideyaları və İslam dəyərləri ilə səsləşmir. İmam Hüseyn (ə) məclisləri din həqiqətləri məclisi, başqa sözlə, İmam Hüseyn (ə) eşqi ilə səciyyələnən din maarifi məclisləri olmalıdır. Əgər orada Kərbəla müsibətlərindən söhbət



gedirsə, bu, tarixi baxımdan əsaslandırılmalı və İmam Hüseyn (ə) şəninə uyğun olmalıdır. Mütləq, tarixi həqiqətlər, İmam Hüseyn (ə), ailəsi və tərəfdaşlarının başına gələn müsibətlər uyğun dillə qeyd olunmalıdır. Hissləri bəyan etmək üçün ən gözəl nitq vasitəsi şeirdir. Amma bu, mütləq, tarixi sənədə əsaslanmalıdır. Yanlış mətləblər bəyan oluna bilməz. Hətta İslam maarifi ilə səsləşməyən mətləblər də İmam Hüseyn (ə) eşqi adı ilə deyilə bilməz. İslamda o eşq dəyərlidir ki, ağıla söykənsin. Bu eşq əslində din həqiqətini təcəlla etdirir. Onu iman qəlibində insanlara aşılayır. Yoxsa, dinə zidd bir mətləbi İmam Hüseyn (ə) eşqi, İmam Hüseynə (ə) iman adı ilə cəmiyyətdə yaymaq olmaz.

Çevirən: **Maqsud Sayıl**

# AŞURA İBRƏTLƏRİ



**Ayətullah Xamenei: Nə üçün Peyğəmbərdən (s) qısa müddət sonra İmam Hüseyn (ə) belə bir fədakarlıq göstərməyə məcbur oldu?**

Bir hadisənin dərsləri ilə ibrətləri arasında fərq var. Hadisənin ibrətlərində onun təkcə müsbət cəhətləri yox, həm də mənfi cəhətləri nəzərdən keçirilir. Aşura ibrətləri arasında cəmiyyətin İmam Hüseynin (ə) qiyamına biganəliyi hətta müxalifəti önəmli yer alır. Aşura hadisəsinin ibrətləri barədə Cənab Rəhbər Ayətullah Xamenei buyurur: "Aşura hadisəsində diqqətimizi çəkən birinci ibrətamiz nöqtə budur ki, Peyğəmbərin (s) vəfatından 50 il ötəndən sonra İslam cəmiyyətinin bu qədər tənəzzülünün səbəbinə nəzər salaq. Necə oldu ki, Peyğəmbərdən (s) qısa bir müddət sonra İmam Hüseyn (ə) belə bir fədakarlıq göstərməyə məcbur oldu... Necə oldu ki, İmam Hüseyn (ə) İslamın qurtuluşunu yalnız belə bir fədakarlıqda gördü? Biz Yezid kimi bir fərdin cəmiyyətə hakim olması səbəbini tapmalıyıq? Nə üçün elə bir vəziyyət yaranmalı idi ki, İmam Hüseyn (ə) tarixdə misli görünməmiş bir fədakarlıqdan başqa yol seçməsin? Vəziyyətin bu duruma gəlməsinin səbəbi nədir? Bu həmin ibrətamiz nöqtədir... Əmirəlmömininin (ə) şəhadətindən 20 il sonra onun hakim olduğu şəhərdə əmirəlmömininin (ə) övladlarının başını nizəyə sancdılar, həmin şəhərdə dolandırdılar... Əmirəlmöminin (ə) qızları və ailəsini Kufə bazarında gəzdirdilər..."

Qeyd olunan suallara tapılan cavablar, bu istiqamətdə araşdırmalar İslam cəmiyyəti üçün ibrət ola bilər. Əgər İslam Peyğəmbərinin (s) inqilabını müəyyən amillər İmam Hüseynin (ə) şəhadəti kimi bir faciəyə apardısa, şübhəsiz ki, İslam İnqilabında da həmin amillər ortaya çıxsa eyni aqibətlə üzləşərik. Aşuranın ibrəti buradadır. Əgər Aşura hadisəsini yaradan amilləri düzgün tanısaq öz cəmiyyətimizdə də bu amilləri tanıyar və inqilabı ondan qoruya bilərik. Bir daha Aşura baş verməz. Əgər ibrət götürməsək, öz vəzifəmizə əməl etməsək, eyni aqibət İslam inqilabını da gözləyir.

Aşura hadisəsini hansı amillər yaratdı? Bu barədə müxtəlif nəzəriyyələr var. Amillərdən biri millətçilik, tayfaçılıq amilidir. Etiqadi, ictimai-siyasi, əxlaqi amillər də var. Müxtəlif araşdırmaçılar bu amilləri nəzərdən keçirmişlər. Bəzi araşdırmaçılar Bəni-Üməyyənin Bəni-Haşimlə düşmənçiliyini, başqa bir qrup isə dəyərlərin dəyişilməsini Aşura hadisəsinin əsas amili kimi qiymətləndirir. Bəziləri düşünür ki, mənəviyyata diqqətsizlik, məsuliyyət hissinin olmaması bu hadisəni yaratdı. Cənab Rəhbər Məryəm surəsinin 59-cu ayəsini yada salır. Ayədə buyurulur: "Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi..." Demək bu azğınlığın iki əsas səbəbi var. Biri Allahın zikri olan namazdan uzaqlıqdır. İnsanlar Allahı unutmaqla mənəviyyat ikinci plana keçdi. Zikr, dua, təvəssül kənara qoyuldu. İkinci nöqtə şəhvətpərəstlik, azğın nəfs istəklərinə tabeçilik oldu. İnsanlar var-dövlət toplamaq, eyş-işrətlə məşğul olmaq yolunu seçdilər. İdeallar yaddan çıxdı. Bizim də belə problemlərlə üzləşməyimiz mümkündür.

Şəhid Mütəhhəri də bu mövzunu yada salaraq buyurur: "İmam Hüseynə (ə) Rey mülkü tamahı, pul istəyi ilə arxa çevirdilər. İnsanlar arxada qalmış 60 ili unutmuşdular. Onlar zahirə aldanmışdılar."

Deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, yalnız bir amil üzərində dayanmaqla Aşura hadisəsini düzgün təhlil etmək olmaz. Bu hadisəyə təsirli amillər kompleks şəkildə araşdırılmalıdır. Mühüm amilləri nəzərdən keçirək.

Dəyərlər və ideallarıın yaddan çıxarılması əsas amillərdəndir. Başqa bir amil öncüllərin öz missiyasını yaddan çıxarmasıdır. Peyğəmbər (s) dövrünə hansı dəyərlər hakim idi? Bir sosioloq dəyərlərə belə tərif verir: Dəyərlər köklü əqidələrdir, cəmiyyət yaxşılıqları, fəzilətləri tanımaq üçün dəyərlərə üz tutur... Verilən tərifə görə dəyərlər cəmiyyəti istiqamətləndirir. Dəyərlər dəyişirsə ictimai münasibətlərdə də dəyişikliklər yaranır. Buna görə də dəyərləri tanımaq insanların əsas vəzifələrindəndir.

İslamdan öncə ərəblər etiqad baxımından bütpərəst idilər. Onların Allah, Peyğəmbər, məad haqqında təsəvvürləri yox idi. Onlar azğınlıq içində yaşayırdılar. İrqçilik, tayfaçılıq, sərvət dəyərləri təyin edirdi. Cahiliyyət dövründə ərəblər qeyrət və şücaətə çox diqqət yetirirdilər. Həqiqət isə budur ki, onlar qeyrət və şücaət deyəndə dünya malı uğrunda savaşda fədakarlığı nəzərdə tuturdular. Gedilən yolun haqq ya batil olması mühüm deyildi. Əsas o idi ki, insan qorxmasın. Cahil ərəblər şücaət deyəndə bunu başa düşürdülər. Onlar qız övladları qətlə yetirir, və bunu qeyrət sayırdılar. Həzrət Peyğəmbər (s) cəhalət ənənələri ilə mübarizəyə başladı.

Açıq elan etdi ki, İslamda bütün bunlar insan üçün imtiyaz sayılmır. O insanlar üçün elm və mərifəti, Allah və məada etiqadı imtiyaz kimi tanıtdırdı. İman və təqva, Allah yolunda cihad tayfaçılıq və dünyapərəstliyin yerini tutdu. Dəyərlər sistemində bir dəyişiklik baş verdi. Artıq insanlar üçün tanınmış bir tayfaya mənsubluq və ya var-dövlət imtiyaz sayılmırdı. Cabir ibn Abdullah Ənsari deyir: "Ühud savaşında meydana, atam Abdullahla görüşməyə getdim. O can üstündə idi. Su istədi. Mən su gətirdim. Ona su vermək istəyəndə yanındakı yaralını göstərib bildirdi ki, o susuzdur, ona ver. Mən həmin şəxsə su təklif edəndə o da öz kənarındakı şəxsi göstərdi. Beləcə mən suyu məclisdə dolandırmağa başladım. Buradakılar hamısı şəhadət ayağında idi. Mən sonuncu şəxsə su vermək istəyəndə artıq o şəhadətə çatmışdı. Mən geri dönüb əvvəlki şəxsə su vermək istəyəndə artıq hamının şəhadətə çatdığını gördüm." Bu hadisə İslamın gəlişindən sonra dəyərlərin necə dəyişdiyini göstərir. Hansı ki bu insanlar az bir müddət öncə başqa ənənələrə sahib idilər. Cahil ərəb bir şey yeyəndə kimsə ondan yediyindən istəsəydi imtina edərdi. Həzrət Peyğəmbər (s) baxışları dəyişdi. Artıq insanlar ölüm ayağında ətrafdakıları özlərindən üstün tuturdular. Onlar məktəb yolunda həyatlarını verir, şəhadətdə bir-birindən qabağa düşməyə çalışırdılar.

İnqilabi hərəkatda ən böyük təhlükələrdən biri irticadır. Təəssüf ki, Peyğəmbərin (s) inqilabında da bu halla rastlaşırıq. Peyğəmbərdən (s) sonra etiqadlar və dəyərlər öz təravətini itirdi, sanki cahiliyyət yenidən dirçəlməyə başladı. Peyğəmbərin (s) dövründə şəhadətə təşnə olan insanlar peyğəmbərin cənazəsi yerdə ikən Səqifədə toplanıb İslam hakimiyyətini qənimət kimi bölmək istədilər. Təəssüf ki, cahiliyyət ənənələri ağla gəlməyən bir şəkildə geri dönürdü. Əbuzər, Əmmar, Hücr ibn Ədi (Üdeyy) kimi mömin insanlar işkəncəyə məruz qalır, sürgün edilirdi. Əvəzində Peyğəmbər (s) tərəfindən sürgünə göndərilənlər işbaşına gəlirdi. Beytül-mal dağıdılırdı, İslam cəmiyyətini günah və fəsad bürüyürdü. Məsuliyyət hissi, əmr be məruf və nəhy münkər ikinci plana keçmişdi. İrtica, geriyə qayıdış Osman dövründə elə bir səviyyəyə çatdı ki, beytül-mal xəlifənin qohumlarının ixtiyarına verildi.

Həzrət Əli (ə) xalqın israrı ilə hakimiyyəti qəbul etdikdən sonra dəyərlərin təravətdən düşməsi ilə bağlı dedi: "Ey Allahın bəndələri, siz elə bir dövrdə yaşayırsınız ki, xeyir və yaxşılıq ona arxa çevirmiş, şərr və pislik ona üz tutmuşdur. Şeytanın istəyi insanların məhvidir. Elə bir dövrdür ki, şeytanın tərəqqi vasitələri güclənib, hiylə və yalan ətrafı tutub, şeytanın ovu ələ keçirməsi asanlaşıb. Hara baxsan yalnız bunu görəcəksən ki, yoxsullar yaşamaq üçün vuruşur, sərvətlilər Allahın nemətlərini nankorluğa çevirir, xəsislər ilahi haqlara göz yummaqla sərvətini artırıb, qulaqlar nəsihət eşitməyə kar olub. Bunlardan başqasını görürsənmi? Hanı sizin yaxşılarınız, salehləriniz, azad və səxavətli kişiləriniz? Hanı o şəxslər ki, ticarətlərində və işlərində təqvalı idilər, rəftarlarında pislikdən qaçırdılar. Bütün bu insanlar alçaq dünyadan köçübmü?! Belə görünür ki, siz dəyərsiz insanların varisləri olmusunuz. Yalnız onlar məzəmmət olunur ki, məqamları aşağı salınsın, birdəfəlik yaddan çıxsınlar. Həqiqətən hamı Allah tərəfindəndir və Allaha doğru qayıdar. Fəsad aşkar olub, onun qarşısını alan yoxdur. Bu vəziyyətlə Allahın mərhəmətindən faydalanmaq, onun əziz övliyalarından olmaq istəyirsiniz?!"

Etiqadlarda və dəyərlərdə dağıdıcılıq bir həddə çatdı ki, peyğəmbərə canişinlikdə iddialı olanlar peyğəmbərin dinini məhvə aparmaq yolunu seçdilər. Müğeyrə ibn Şəbə Müaviyədən xahiş edir ki, xalqla ədalətlə rəftar etsin, Bəni-Haşimi incitməsin. Müaviyə belə cavab verdi: Eşit Müğeyrə, Əbu Bəkr xilafətə çatdı, ondan sonra adı da qalmadı. Ömər, Osman da beləcə gəldi-getdi. Amma hər gün 5 dəfə Haşimin qardaşının adı (Həzrət Peyğəmbər)




İslam dünyasında minarələrdən səslənir. Onun peyğəmbərliyinə şəhadət verilir. Əgər 3 xəlifə ölüb yaddan çıxırsa, peyğəmbər (s) yadda qalırsa görüləcək iş onu unutdurmaqdır. İşimiz onun adını da dəfn etməkdir...

Belə əhvalatlar Müaviyə və Yezidin həyatında çox olub. Onlar İslamla, dini dəyərlərlə vuruşublar. Əgər Aşura qiyamı olmasaydı məqsədlərinə çatıb İslamı məhv edəcəkdilər. Müaviyə öz söhbətlərində Peyğəmbərin (s) hakimiyyətini padişahlıq adlandırır, onu unutdurmağa çalışır.

Nə üçün Peyğəmbərdən (s) sonra dəyərlər və ideallar təravətdən düşdü? Bu sualı cavablandırmaq üçün bir nöqtə aydınlaşmalıdır. Psixoloqlar deyir ki, tərbiyə tədrici prosesdir. Həzrət Peyğəmbər (s) insanların tərbiyəsi, İslam dəyərlərinin cəmiyyətdə yer alması üçün çox çalışdı. Amma bu dəyərlərlə böyümüş insanları dəyişmək üçün 10 il çox az idi. Doğrudur ki, insanlar İslamı qəbul etmişdilər. Amma cahiliyyət ənənələri unudulmamışdı. Xüsusi ilə bir çox müsəlmanlar Məkkənin fəthindən sonra, hicri 8-ci ildə İslamı qəbul etmişdi. Peyğəmbər (s) isə bu hadisədən 2 il sonra dünyasını dəyişdi. İslam dəyərlərinə zidd hərəkatın bünövrəsi Səqifədə qoyuldu. Peyğəmbərin (s) yaxın səhabəsi sayılan şəxslər onun adına insanı hey-

rətə gətirən sözlər yazdılar. Hansı ki, Peyğəmbər (s) Məkkədə son səfərində açıq demişdi ki, ərəblə-əcəm arasında, qulla-ağa arasında fərq yoxdur. Amma Səqifədə elan olundu ki, Peyğəmbər (s) buyurub: Rəhbərlər Qüreyşdəndir... Bu söz açıq-aşkar Quran və Peyğəmbər (s) sünnəsinə zidd idi. Beləcə cahiliyyət ənənələrini diriltməyə başladılar. Amma bir çox insanların imanı güclü idi, dünya həvəslərinə aludə olmamışdılar. Bu vəziyyət çox davam etmədi. Ümmət hər gün Peyğəmbərin (s) yolundan uzaqlaşırdı. Vəziyyətin dəyişməsinə təsir edən amillər çox idi. Bunlardan biri xalqın Əhli-Beytdən (ə) uzaq düşməsi oldu. Rəhbərlik peyğəmbərin seçdiyi yoldan kənarlaşdı. Həzrət Əli (ə) 25 il siyasi səhnədən kənarda saxlanıldı. Həqiqi din Əhli-Beytin (ə) düşüncəsində idi və Əhli-Beyt (ə) xalqdan təcrid olunmuşdu. Hətta Həzrət Əli (ə) Peyğəmbərin (s) hədislərini danışa bilmirdi. Həqiqi dinlə tanış olmaya bilməyən insanlar doğru yoldan uzaqlaşırdı. Cəmiyyəti İslam yolundan uzaqlaşdırmaq üçün tədbirlər güclənirdi. İnsanlar Əbu Hüreyrənin, Kəbül-Əxbarın vasitəsi ilə dini tanıyırdı. Əhli-Beytin (ə) fəzilətlərindən danışmaq qadağan olunmuşdu. İbn Əl-Hədid nəql edir ki, Müaviyə öz işçilərinə yazdı: Kim Əbu Turab (Həzrət Əli (ə)) və onun ailəsinin fəzilətlərindən danışsa qətli zəruridir. Mülkü alınmalıdır... Müaviyə bununla kifayətlənmədi, göstəriş verdi ki, Həzrət Əlini (ə) alçaldan hədislər uydurulsun. Onun göstərişi ilə minbərlərdən Əliyə (ə) lənət oxunurdu. Hətta belə bir göstəriş vermişdi ki, kimin Əli (ə) ilə yaxınlığı olsa divanda adını xətləyin, bütün imtiyazlardan məhrum edin. Başqa bir göstərişdə deyilirdi ki, kimin Əhli-Beyt (ə) dostu olması barədə şübhə yaransa evini dağıdın, özünə işkəncə verin. Müaviyə Bəsrə və Kufənin hakimiyyətini Ziyad ibn Übəyyəyə verdi. Bu şəxs əvvəllər Həzrət Əlinin (ə) yaxınlarından sayılırdı. Əli tərəfdarlarını yaxşı tanıyan bu şəxs onlara olmazın əzabını verdi, çoxlarının əl-ayağını kəsdi, gözlərini çıxardı. Yaxın tərəfdarlar sürgün edildilər, bir nəfər də olsa tanınmış şiə qalmadı. Müaviyənin təbliğatı sayəsində Əliyə (ə) lənət oxumaq ibadət sayılırdı. Kim namazda bu lənəti oxumurdusa namazının qəzasını qılırdı. Müaviyə hər vasitə ilə xalqı Əhli-Beytdən (ə) uzaqlaşdırırdı. Kim buna qarşı çıxırdısa ölüm sorağına gəlirdi.

Başqa bir amil imamətin padişahlığa çevirilməsi oldu. Aşura faciəsinin səbəblərindən biri də imamət üsul-idarəsinin aradan qaldırılması idi. Təbii ki, hər bir cəmiyyətin hakimiyyətə ehtiyacı var. Digər tərəfdən hakimiyyət İslam hakimiyyəti olmalıdır. Əgər Peyğəmbərdən (s) sonra məsum imamlar hakimiyyətdə olsaydı Quran



və sünnə göstərişləri davam edərdi. Təəssüflər olsun ki, Səqifə hadisəsi ilə bağlı İslam hakimiyyəti davam etmədi, hakimiyyət padişahlığa çevirildi. Sonda Müaviyə və Yezid kimi din düşmənləri hakimiyyətə gəldi. Bu sülalə haqqında Həzrət Əli (ə) buyurur: Ey Müaviyə, nə zamandan siz millətə rəis olmusunuz? İslama xidmətsiz, mənəvi ləyaqətsiz bu məqama necə çatdınız?

Müaviyənin ölümündən sonra beyət üçün İmam Hüseynin (ə) qapısını döydülər. Onu Yezidə beyət etməyə çağırdılar. İmam buyurdu: Əgər Yezid kimi biri müsəlmanlara hakim olacaqsa İslamın fatihəsini oxumaq lazımdır... İmam eyni zamanda düşmən qoşunu ilə üzbəüz dayanarkən buyurdu: Agah olun ki, Bəni-Üməyyə şeytana ardıcıllığı özünə vacib edib, Allaha tabeçilikdən boyun qaçırıb. Fəsadları aşkarlanıb, ilahi hədləri gözləmirlər...

Heç şübhəsiz, dəyərlərin bərpasında hakimiyyətin rolu böyükdür. Həzrət Əli (ə) buyurur: "Xalq atalarından çox hakimlərə bənzəyir." Müaviyə və Yezid kimiləri hakim olanda necə insanların tərbiyə olunacağı aydındır. Biz Aşura hadisəsində zalım hakimlərin tərbiyə etdiyi cəmiyyəti görürük.

Xalqın dəyərlərdən uzaqlaşmasının bir səbəbi də xəlifələrin dövründəki fəthlər oldu. Bu fəthlər İslam coğrafiyasını genişləndirsə də təbliğat işi yerində olmadığından insanlar dünya ardınca qaçırdı. Bu müharibələrdə iştirak etmək kifayət qədər qənimət əldə etmək idi. Fəthlərdə olanlar böyük sərvət qazanırdı.

Dəyərləri məhv edən amillərdən biri də səhabələrin yolunu azması oldu. Əmmar, Əbuzər kimi sadiq səhabələr sürgünə göndərildi, dünya ardınca gedən səhabələr iş sahibi oldu. Abdullah Məsud Əbuzərin sürgünə göndərilməsindən çox narahat idi. Malik Əştər Zeyd, Cündəb, Kümeyl Şama sürgün olunmuşdu. Hakimiyyətə Bəni-Üməyyədən olanlar işə götürülürdü. Behişt-cəhənnəm yaddan çıxmışdı. Elə insanlar iş başına gətirilmişdi, məscidə məst halda gedirdilər. Xalqın qınaqları onları utandırmırdı.

Dəyərlərin məhvi Yezidin dövründə zirvə nöqtəsinə çatdı. Çünki hakimiyyət başında İslama zərrəcə etiqadı olmayan əyyaş bir şəxs dayanmışdı. O açıq-aşkar günahdan çəkinmirdi. Aydın məsələdir ki, hakimiyyətdə belə biri olanda xalq da yolunu dəyişir. Xalq biganələşir, dəyərlərin məhvində hakimiyyətə köməkçi olur. Aşurada zalım hakimiyyətin hökmü altında olan xalqı görürük. Aşura ibrətləri ona görədir ki, biz öz həyatımızda İslam inqilabını, hakimiyyətini, dəyərlərini qoruya bilək. Aşura hadisəsinin səbəblərindən biri tanınmış insanların məsuliyyətsizliyi oldu. Cənab Rəhbər Ayətullah Xamenei İslam hakimiyyəti və dəyərlərinin qorunmasında öncül insanların iman və təqvasını əməl və rəftarlarını mühüm sayır. Əgər məsullar dünya bərbəzəyinə aldanmasa, dini dünyaya qurban verməsə, vaxtında haqqın müdafiəsində dursa İmam Hüseynin (ə) dövründəki zəiflik yaranmaz.

# DİNİ DƏVƏT ZAMANI TƏMKİNLİ VƏ SEVGİ DOLU SÖHBƏT



Dinimizin buyruğuna görə, ruhaninin bəyanı təmkinli və aram olmalıdır. Söhbət edərkən emosiyalarını cilovlamağı bacarmalıdır. Bəzən ruhani danışarkən dini hissləri və təəssübü səbəb olur ki, səsini ucaltsın. İnsanları mənəvi dəyərlərə əhəmiyyət vermədikləri üçün danlasın. Bəzən də, sanki özünü dinin yer üzərindəki ən məsum və səlahiyyətli nümayəndəsi sayaraq, qürurla insanların üzərinə qışqırması, onları az qala təhqir etməsi, ata oğlunu danladığı kimi danlamasının şahidi olmaq mümkündür. Hər iki hal olduqca xoşagəlməzdir. Çünki tələsmək və qışqıraraq danlamaq müxtəlif səbəblərə əsasən düzgün təbliğ metodu deyildir. Ümumiyyətlə, qışqıraraq danışmaq dinimizdə pislənmiş xüsusiyyətlərdəndir. Qurani-kərimdə bu haqda ayə vardır.[1] Buna görə ki, insanların üzərinə qışqırmaq mədəniyyətdən və dindarlıqdan uzaq rəftardır, təkəbbürdən qaynaqlanan kobudluqdur.[2] Allahın elçisi (s) buyurur: "Sizə Allahın ən pis bəndəsinin kim olduğunu söyləyim? Təkəbbürlü və kobud insan... Allah-taala asta səsi sevər və uca səsə (qışqıra-qışqıra danışmağa) nifrət edər."[3]

Dini təbliğ edən şəxs insanlara qışqıraraq öyüd-nəsihət etdiyi zaman, dinləyicilər dinə olan sayğılarına görə ruhaniyə etiraz etməsələr də, üzləşdikləri sərt tənqidin qarşısında istər-istəməz özünün müdafiə mexanizmi fəal olacaqdır. Bununla da, ruhaninin sözləri təsirsiz olacaqdır. Çünki insanın fitrətində ona hücum gətirildiyi zaman müdafiə etmək hissi vardır. Elə bunun üçün də, dinimizdə xüsusilə də, insanlara təbliğ edən və elm öyrədən zaman kobudluq və zorakılığa yol verməməsinə təkid edilmişdir.[4]

İnsanlarla gözəl davranmaq, təkəbbür və lovğalıqdan uzaq rəftarlar etmək, dinə mülayimliklə dəvət etmək, həm ruhaninin hörmətinin çoxalmasına, həm də kəlamlarının təsirli olmasına səbəb olar. Həzrət İmam Sadiq (ə) buyurur: "Kim hörmətli olmaq istəyirsə mülayim olsun, xar olmaq istəyirsə kobud olsun."[5]

Qurani-kərimdə Həzrət Musaya (ə) buyurulan gözəl bir ibrət vardır. Ona, tanrılıq iddiasında olan və zülmünün həddi-hüdudu olmayan Fironu dinə dəvət etməsi üçün göndərildikdə, mehribanlıqla və aram şəkildə söhbət etməsi göstəriş verildi:"Fironun yanına yollanın. O (allahlıq iddiasına düşməklə), həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!"[6]

---

[1]- Loğman surəsi, 19
[2]- Qürərül-hikəm, hədis 4660; Qürərül-hikəm, hədis 5073
[3]- "Kənzül-ümmal", hədis 5944; Munyətül-murid, səh. 213
[4]- Tənbihül-xəvatir, c. 1, səh 85
[5]- Biharül-ənvar, c. 87, səh. 269
[6] - Taha surəsi, 43-44

**Dr. Hacı Tofiq Əsədov**

# QURAN TƏHRİFİNƏ QARŞI ƏHLİ-BEYT HƏDİSLƏRİ

Bəzi sələfilər Cəfəri məzhəbini gözdən salmaq məqsədilə Əhli-beyt imamlarından nəql olunan 2000 hədisdə Qur-anın təhrif olunduğunun bildirildiyini iddia edirlər. Əslində isə bu da növbəti savadsızlığın və ya qərəzliliyin nəticəsidir. Çünki istinad olunan rəvayətlərin çox böyük əksəriyyəti mövzudan xaric olub əlavə təfsirlərin çıxarılmasına, qiraət fərqlərinə, mənəvi və ya tərtibatda təhrifə aiddir. Məhz təhrifə dəlalət edən və müvafiq açıqlaması olmayan azsaylı rəvayətlər isə əxbarilərin bir qismini çıxmaq şərtilə Əhlibeyt alimləri tərəfindən məqbul sayılmır və rədd edilir. Həm də xatırladaq ki, sələfilərin mötəbər saydıqları mənbələrdə belə rəvayətlər dəfələrlə çoxluq təşkil edir. Lakin onlar öz gözlərində tiri görməyib başqasının gözündə çöp axtarır, vecsiz uşaqlar kimi ona-buna sataşmaqla ətrafdakıların diqqətini çəkməyə çalışırlar.

Belələrinin bir "iradı" həm də Əhli-beyt imamlarına yönəlməkdədir. Onlar deyirlər ki, Əhli-beyt imamları Quranın təhrif edilmədiyi barədə bir söz söyləməyiblər. Bu kiçik yazıda bu haqda danışacağıq.

Cavab olaraq İmam Əli (ə) və İmam Həsənin 5 ildən artıq sürən xilafətlərindən başlaya bilərik. Allah-Taalanın bu qədər təkidlə nazil etdiyi, dönə-dönə tapşırdığı kitabının təhrifi kiçik məsələdir ki, onlar çıxarılmış ayələrin bərpasına heç bir cəhd etməsinlər?! Əgər Əhli-beyt Quranın təhrif olunduğunu düşünsəydi, ən azı xilafətləri zamanı bunu bildirər və müsəlmanları əsl Quranla tanış edərdilər. Halbuki belə bir hal baş verməyib, onlar da bu gün əlimizdə Quran ayələrini oxumuş, həmin ayələrlə hökm çıxarmışlar. Xəlifə olmuş bu iki imam Quranın sözlərinin yox, məna və məğzinin təhrif olunduğunu, cəmiyyətin Quran yolundan uzaq düşdüyünü düşünür və imkanlarını ümmətin kəmiyyət deyil, keyfiyyət artımına sərf edirdilər. Allahın rəsulu bu haqda İmam Əliyə işarə edərək buyurmuşdur: "Mən Quranın tənzili (nazil olması) üçün vuruşduğum kimi, sizin aranızdan biri də onun təvili üçün vuruşacaq". (Əhməd ibn Hənbəl, 17/360, 391; 18/296; Albani M. "Silsilə əhadis əs-səhihə", 5/639-640)

Mötəbər kitablarda İmam Əlinin, ona yaxın səhabələrin və digər Əhli-beyt imamlarının ilk xəlifələr haqda bəzi tənqidləri yer almışdır. Lakin onların arasında Quranın təhrifinə dair etiraz gözə dəymir. Halbuki bunun əhəmiyyəti nəinki digər məsələlərdən, heç xilafətdən də az deyil. Digər tərəfdən, bəzi saxta hədisləri çıxmaq şərtilə, onlar heç bir yerdə Əhli-beytin xeyrinə, yaxud səhabələrin əleyhinə hansısa bir cümləyə istinad edib onun təhrif olunmuş ayələrdən olduğunu söyləməmişlər.

İmam Əli Quranın mötəbərliliyinə və kənar müdaxilələrdən qorunmasına işarə vuraraq buyurur: "Sizin aranızda olan Allah kitabı dili yorulmaq bilməyən natiq, dirəkləri xarab olmayan bir evdir". (Nəhcül-bəlağə, xütbə: 133)

İmam Baqir Səd əl-Xeyrə yazdığı məktubunda müsəlmanların Quranın ayələrini diqqətlə qoruduqlarını, amma mənasını təhrif etdiklərini açıq-aşkar bildirirdi: "(Allahın) kitabından üz çevirməyin bir növü belədir ki, hərflərini qoruyub, hədlərini (mənalarını) təhrif edirlər. Rəvayət edirlər, lakin riayət (və əməl) etmirlər. Cahillər onun rəvayətinin qorunduğuna sevinir, alimlər isə ona əməl olunmadığına görə kədərlənirlər". (Kuleyni. Əl-Kafi, 8/53)

İmam Baqir Quranın müxtəlif həcmlərdə deyil, eyni olduğunu bildirərək buyurur: "Quran birdir, Bir olan tərəfindən bir nəfərə nazil olub. Fərqlər isə yalnız rəvayətçilərə görədir". (Kuleyni, 2/630) Eyni hədisi Şeyx Səduq İmam Sadiqdən nəql etmişdir. (Səduq. Əl-Etiqadat, 86) Bu və eyni məzmunlu digər hədislər göstərir ki, Quran təhrifə uğramayıb, fərqlər isə yalnız rəvayətçilərə - onu fərqli qiraət edənlərə görədir.



Quranın təhrifinə dair hədislərdə guya imamların adlarının yer aldığı ayələrin çıxarıldığı bildirilir. Halbuki İmam Sadiq bu iddianı rədd etməklə Quranın təhrif olunduğuna dair fikirlərin mental əsasını uçurmuş olur. Ondan "Əlinin və Əhli-beytin adları nə üçün Quranda qeyd olunmayıb?" – deyə soruşanda cavab verir ki, Allah namaz haqda ayə göndərib, amma onun üç, yoxsa dörd rəkət olduğunu deməyib. Bunu Allahın rəsulu təfsir edib. "Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin" ayəsində Əlinin və Əhli-beytin nəzərdə tutulduğunu da Peyğəmbər söyləyib.

(Kuleyni, 1/286-287)

Şeyx Müfidin İmam Baqirdən nəql etdiyi bir hədisdə də belə deyilir: "(Mehdi) qiyam edəndə Quranı Allahın nazil etdiyi kimi tədris edənlər üçün çadırlar quracaq. Əlimizdəki Quran tərtib (düzülüş) baxımından fərqli olduğu üçün əzbərləməsi çətindir". (Müfid M. Əl-İrşad, 2/386) Göründüyü kimi, bu hədis də Quranın təhrif olunmadığını və yalnız tərtib baxımından nazilolma ardıcıllığı ilə toplanmadığını göstərir. Bu isə hamının bildiyi və qəbul etdiyi məsələdir.

Əhli-beyt imamlarının Quranın təhrif olunmadığı haqda sözlərindən bir qismi hədislərin Quranla ölçülməsi, dəyərləndirilməsi barədə buyruqlarıdır. (Bax: Hürr Amili. "Vəsail əş-Şiə", 27/109-124) Müxtəlif İslam mənbələrində yer alan çoxsaylı belə hədislərin birində İmam Sadiq buyurur: "Qurana müvafiq

olmayan hər bir hədis cəfəngiyatdır". (Kuleyni, 1/69) Bu söz hədisləri Quranla deyil, Quranı hədislərlə ölçən və beləliklə də bəzən təhrif fikrilə nəticələnən Əxbari düşüncəsi ilə daban-dabana ziddir. Bu qədər böyük sözü söyləməkdən ötrü ilk öncə Quranın təhrif olunmadığını, toxunulmaz və dəyişməz meyar olduğunu qəbul etmək lazımdır ki, heç şübhəsiz, imamlar bunu qəbul etmişlər.

Başqa bir hədis onuncu imam həzrət Hadidəndir. Onun sözlərini olduğu kimi tərcümə edirik: "Ümmətin hamısı yekdilliklə Quranın haqq olmasına dair icma etmişlər. Bütün firqələrə görə, onda heç bir şübhə yoxdur... Onların arasında Quranın tənzil və təsdiqi barədə fikir ayrılığı mövcud deyil". (İbn Şöbə Hərrani H. "Tuhəf əl-uqul", 458)

Əhli-beyt imamlarının Quranın təhrif olunmadığını bildirən sözləri çox, onların hamısını qeyd etmək imkansızdır. Həm də nəzərə almaq lazımdır ki, o zaman Quranın söz təhrifi deyil, məna təhrifi və şəxsi rəyə əsaslanan təfsiri daha aktual olub. Bu baxımdan, bu növ təhrif və təfsirləri qadağan edən hədislərin daha çox olması da təbiidir. Nümunə üçün, İmam Sadiq buyurub: "Quranı öz rəyinə uyğun təfsir edənin təfsiri təsadüfən düz çıxsa belə, ona savab verilməz". (Əyyaşi M. Təfsir, 1/27) O dövrün tarixini araşdırdıqda və müsəlmanları düşündürən məsələlərlə tanış olduqda bu nəticəyə gəlirik ki, o zaman əsas problem Quran ayələrinin yanlış izahı və mənəvi təhrifi olmuşdur və imamlar da əsasən bu məqam üzərində dayanmışlar.

Bununla yanaşı, biz yuxarıda Əhli-beyt imamlarının uyğun sözlərindən nümunələr qeyd etdik. Görəsən sələfilər öz sələflərindən nə qədər belə nümunə gətirə bilərlər? Məsələn, Quranın dəyişdirilmədiyinə dair Xəlifə Əbu Bəkr, Ömər və ya Osmandan bir sitat gətirə bilərlərmi?! Halbuki bunun əksinə nümunə var: ikinci xəlifə ömrünün sonlarında da rəcm ayəsinin Qurandan çıxarıldığına təəssüf edir, Peyğəmbərin sağlığında bu ayənin oxunduğunu bildirir və onu yenidən Qurana daxil etmək istəyini ifadə edirmiş. Yaxud sələfilərin sevimli şahları olan Müaviyə və Yezid harada Quranın təhrifə məruz qalmadığını, Allah tərəfindən nazil olduğu kimi bizə çatdığını bildirmişlər? Biz Əhli-beyt imamlarına irad bildirərək onların Quranın təhrif edilmədiyinə dair bir söz demədiklərini iddia edən sələfilərə cavab verdik. Əhli-beyt imamlarının dedikləri isə Peyğəmbərin öyrətdikləri və ondan irs aldıqlarıdır. İndi isə sələfilər öz kitablarından Quranın dəyişdirilməyəcəyinə dair Peyğəmbərdən və məzhəb imamlarından səhih rəvayətlər söyləsinlər.

**Vüsal Hüsenyzadə**

# "Şeytan insanı azdırır" deyiminin düzgün təhlili



**1.**

Çoxları "Şeytan insanı azdırır" deyimini doğru anlamır, düzgün təhlil edə bilmir. Elə düşünürlər ki, şeytan kiminsə əlindən tutub onu günaha, pisliyə doğru çəkir, onu günah bataqlığına itələyir. Əslində isə, bunu belə anlamaq yalnış olardı. Nə üçün? Zənnimcə, ən azı, ona görə ki, mən faktiki olaraq öz iç dünyamın şahidi oluram ki, kimsə məni hansısa bir günahın, pisliyin içinə, özüm istəmədiyim təqdirdə, itələmir. Mən bunu bütün varlığımla duya, anlaya bilirəm. Bilirəm ki, itələyici bir qüvvə yoxdur. Hər nə varsa, mənim azad seçimim, iradəmdir, vəssəlam. Deməli, günahı, pisliyi edən mənəm kiminsə təzyiqi, təhdidi, məcburiyyəti ilə yox. Bu intuitiv (batinən vasitəsiz olaraq qavradığım) dərki ilahi vəhy məntiqi də təsdiqləyir: "Şeytanın hökmü yalnız onun ardınca gedənlərin üzərindədir!" (Nəhl, 100). Bu ayəyə əsasən, şeytan o adama təsir edə bilir ki, ona cavab verir, ona uyur, ardınca gedir öz azad seçimi ilə.

**2.**

Onda belə bir sual yaranır: Bəs, onda şeytanın insanları azdırmasını necə anlayaq, yozaq?!!! Sualın cavabında belə deyə bilərik: Azdırma prosesi, əslində, şeytan tərəfindən adama heç bir təzyiq, zor tətbiq olunmadan həyata keçir, ancaq necə? Deməli, şeytan əslində günah, pislik kataloqunu adamın qarşısına qoyur və deyir ki, bunlar var məndə. Hansını istəsən, seçə bilərsən! Şeytan sadəcə olaraq kataloqdakıları bizə göstərir, vəssəlam. Seçənsə biz adamlarıq heç bir təzyiq olmadan və tam özgür bir iradə ilə. "Şeytan adama vəsvəsə edir" deyimini də, məhz bu mənada, fonda anlamaq gərəkir.

**3.**

**NƏTİCƏ: Yuxarıda deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, həm əqli, həm də dini baxımdan günahı görən, suç işləyən insanın özüdür, ancaq bu suç, günah o zaman məna kəsb edir ki, ortada bir seçim azadlığı olsun. Bu seçimi isə bizlər üçün yaradan, hazırlayan, göstərən məhz ŞEYTANdır. Şeytan bizi günaha, pisliyə məcbur etmir, zorlamır, sadəcə olaraq göstərir və seçimləri təqdim edir, biz isə öz azad iradəmizlə kataloqdakılardan birini və ya bir neçəsini seçirik, qəbul edirik. Ancaq etməyə də, seçməyə də bilərik. Bu, tamamilə bizim istəyimizə, iradəmizə bağlıdır.**

**Emin İmanli**

# KAMİL DİN

**Nə üçün yalnız xristian dini ilahi varlığın təzahürüdür? Bu suala müxtəlif cavablar verilib. Bəzi tədqiqatçılar bu həqiqətə çatmaq üçün müxtəlif dinlərdəki din qabaqcılının, yəni həmin dini gətirən şəxsin həyat tarixini mütaliə edib araşdırmağı lazım bilirlər. Lakin bu təklif ilk baxışdan çox çətin və mümkünsüz görünür. Hər bir dinin ərsəyə gəlməsindən bir neçə əsr keçib. Uzun müddət həyat yolu keçən dinlərin gətiriciləri haqda araşdırma aparmaq, tarixi sübutları tam diqqətlə yoxlamaq, sonra bu yolla dinlər barədə rəy vermək olduqca çətin bir işdir. Deyə bilərik ki, bu təklifin icrası imkan daxilində deyil.**



Digər mütəfəkkirlər hesab edirlər ki, hər hansı bir dinin kamillik dərəcəsini müəyyənləşdirmək üçün həmin din təlimləri nəticəsində yaranan və formalaşan sivilizasiyanı nəzərdən keçirmək lazımdır. Yəni tədqiq etdiyimiz dinin əsrlər boyu ərsəyə gətirdiyi mədəniyyət toplusu düzgün istiqamətdədirsə, bu din əsl, həqiqi dindir. Əks təqdirdə həmin dinin yanlış din olduğu aşkarlanacaq.

Amma bu təklifi də qəbul etmək çətindir. Çünki hər bir dinin cərəyan etdiyi cəmiyyətdə bu dini zəiflədən və əksinə, gücləndirən hadisələr və amillər olub. Dinin düzgünlüyünü ona sitayiş edən insan cəmiyyətindəki hadisələrlə yoxlamaq rasional düşüncəyə uyğun gəlmir. Bəs nə etməli? Bizim qənaətimizə görə, din seçimi məsələsində yalnız bir yolumuz var. Biz hər bir dinin əsasını və onun ictimai qanunlarını ehtiva edən təlimlərini bir yerə toplamalı, onların hər birini tam əqli və rasional şəkildə araşdırmalıyıq. Öncə "Əql və din" fəslində bu barədə danışdıq. Dedik ki, din əqidə və ayinlərdən təşkil olunub. İslam dini də bu iki təlimə əsaslanır. Biz əvvəlcə əqidəyə aid məsələləri tam əqli-fəlsəfi üsullarla təklif etməli, sonra etiqad məsələlərinə söykənən şəriət qanunlarını əqli baxımdan araşdırmalıyıq.

Biz inanırıq ki, dinlərin bu çərçivədə təhlili sayəsində islam dinini ən üstün və məntiqli din hesab edəcəyik. Araşdırmalar göstərir ki, heç bir din islam qədər əqli və tarixi sübutlara əsaslanmır. Bunun əsas səbəbi islam dininin dəqiq və yazılı tarixidir. İslamın mühüm tarixli hadisələri də tarixi sənədlərdə mövcuddur. Heç bir din islam qədər dəqiq və təhrif olunmamış müqəddəs kitaba malik deyil.

İndisə digər bir suala cavab verməliyik. Bizim indi təklif etdiyimiz baxış inhisarçıların görüşlərindən fərqlənirmi? İlk baxışda bu fərq gözə dəymir. Dinə məhdud çərçivədə baxanlar da yalnız bir dini qəbul və digər dinləri rədd edirdilər. Biz də burada təkcə islam dininə həqiqi meyarlara uyğun hesab etdik. Belədirsə, görüşlərini tənqid etdiyimiz inhisarçılardan nədə fərqlənirik?

Müqəddəs islam dinin etiqad məsələsində kifayət qədər tolerant ünsürlərə malikdir. Diqqət edin, insanların əbədi səadəti sadə və əhəmiyyətsiz bir məsələ deyil. İnsan əqli, onun normal düşüncəsi bunu qəbul edə bilmir ki, çox mərhəmətli Rəbbimiz insanların yalnız az bir hissəsini səadətə çatdırsın (cənnətə daxil etsin yerdə qalan və çoxluq təşkil edənləri isə cəhənnəm odunda yandırsın).

Digər tərəfdən insanlar müxtəlif həyat şəraitlərində dünyaya göz açır, təlim və tərbiyə alır, öz cəmiyyətinin adət-ənənəsinin və bütövlükdə mədəniyyətinin varisi olur. Bəzən insanlar həqiqətə çatmaq və həqiqi yolu tanımaq imkanından məhrum olurlar. Bu vaxt hansı əqli meyara uyğun gələr ki, mehriban Allah onları hətta tanıya bilmədikləri dinə etiqad etməyə məcbur etsin? Hər bir insanın dünyagörüşü onun vəzifəsi, elmi bacarığı və azadlığı ilə müəyyənləşir. Bu üç məfhum insan həyatının necə müəyyənləşməsində mühüm rol oynayır. İslam məmləkətində müsəlman ata-anadan doğulan və dini şəraitdə yaşayan, öz ixtiyarı ilə bizim dini seçən insan və bu yolla yüksək mənəvi zirvələri fəth edən şəxs dini mədəniyyətdən uzaqda dünyaya gələn və ateist mühitdə yaşayan insanla bir tərəziyə qoyula bilərmi? Belə insanlar həqiqətən Allahın kamil dinindən - islamdan xəbərsiz yaşamışlarsa, lakin vicdanın, əqlin və saf daxili mənəvi dünyanın qanunlarına sədaqətli olmuşlarsa, xoşbəxt həyata qovuşmaları istisna edilmir. Deməli, qloballıq nəzəriyyəsini müəyyən mənada qəbul etmək olar. Belə ki, doğru yol birdir. İnsanlar bu yola vəfalı olduqları qədər səadət dünyasına qovuşa bilərlər. Şübhəsiz, haqq yolu tanıyan və onun qanunlarını icra edən şəxslər ən yüksək səadətə nail olacaqlar.

**Mail Yaqub**
Fəlsəfə doktoru,

# NAMAZ
# (NƏHCÜL-BƏLAĞƏDƏ)

*(1-ci hissə)*

**Mərhəmətli, rəhmli Allahın adı ilə! Namaz, İslam dininin rüknüdür. “Rükn” bir şeyin ən sağlam və möhkəm tərəfi, təməl və dirək mənasındadır. Belə bir ibadəti, “qılmaq” və bərpa etmək lazımdır. Sütun və təməli oxumaq olmaz. Məhz bu üzdən bizə namazı “qılmaq” əmr olunub. “Namaz qılın” (-“Bəqərə” surəsi, 43, 83 və 110-cu ayələr)**

Bir neçə ayədə “yusəlli” və “musəllin” sözləri olsa da qılmaq mənasını daşıyır. (“Ali-İmran” surəsi, 39-cu ayə) Həzrət Əli (ə.s) həzrət Peyğəmbərdən (s) nəql edir: “Bilin ki, Allah namaz qılanlar və səcdə edənlərə əzab verməyəcəyinə görə izzətinə and içmişdir”. (“Təfsilu vəsailiş-Şiə ila təhsili məsailiş-şəriə”, 1-ci cild, səh: 314.)

Namaz barədə dini ədəbiyyatımızda saysız-hesabsız göstərişlər vardır. Həm Qurani-Kərim həm də məsumlarımız ibadətlərin ən önəmlisi olan namaz barədə söz açmışlar. Bu məqalədə namazın müxtəlif məsələlərini İslamın olduqca dəyərli və mötəbər mən-bələrindən hesab olunan “Nəhcül-Bəlağə” əsərində araşdıracağıq:

### 1-Namaz qılmaq islam millətinə mənsubiyyətin əlamətidir:

“Allaha tərəf yaxınlaşmağın ən yaxşı yolu... İslam dininin dinlik nişanəsi (dinin ən böyük sütunu) olan namaz qılmaqdır. (“Nəhcül-Bəlağə”, 110-cu xütbə.)

Həzrət Peyğəmbər buyurur: “Namazı tərk edə şəxs dinini xarab etmişdir” (“Nəhcül-bəlağə”-nin şərhi, İbn Əbil Hədid, 7-ci cild, səh: 223.)

Həzrət Əli (ə.s) məlun İbn Mülcəm tərəfindən aldığı qılınc zərbəsindən sonra oğlu Həsən və Hüseynə etdiyi vəsiyyətdə buyurur: “Dininizin sütunu olan namaz barəsində Allahdan qorxun...” (“Nəhcül-Bəlağə”, 47-ci məktub)

### 2- Ruhiyyəsiz və tərəddüdlə qılınan namaz pislənib:

İmam Əli (ə) Həruriyyədə olanlardan (İmam Əliyə (ə) müxalifət məqsədi ilə Kufə yaxınlığındakı Hərura səhrasında toplaşmış Nəhrəvan Xəvaricinin) birinin gecə namazı qılıb Quran oxuduğunu eşidəndən sonra (zəmanə imamını tanımadan ibadətin faydasız olması barəsində) buyurmuşdur: “(Zəmanə imamı və haqq xəlifəyə) yəqinlik və inamla olan yuxu şəkk və tərəddüdlə namaz qılmaqdan daha yaxşıdır.” Deməli imam barəsində tərəddüddə olan şəxsin qıldığı namaz və oxuduğu Qur’an düz deyil. (“Nəhcül-Bəlağə”, 97-ci hikmət) “Nə çox namaz (gecə namazı) qılan ki, namaz qılmasından ona oyaqlıq və əziyyətdən başqa bir şey qalmır. (Çünki o, namaz və orucu göstərişlərə uyğun yerinə yetirməyib.) (“Nəhcül-Bəlağə”, 145-ci hikmət.)

Quran-Kərim bu barədə buyurur: “Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər... namaza yaxınlaşmayın” (“Nisa” surəsi, 43-cü ayə)

### 3- Vaxtında qılınan namaz:

İmam Əli (ə) namazın vaxtında qılınması barədə buyurur: “Namazı onun üçün müəyyən olunmuş vaxtda yerinə yetir və bekar olduqda onu vaxtından əvvəl qılma və işin olduğu üçün onu təxirə salma” (“Nəhcül-Bəlağə”, 27-ci məktub)

### 4- Namaz insanı “lovğalıqdan” uzaqlaşdırıb ona “sadəlik” bəxş edər:

“Allah... namazı təkəbbür və məğrurluqdan paklaşmaq üçün vacib etdi” (“Nəhcül-Bəlağə”, 252-ci hikmət)

“Allah mömin bəndələrini əl, ayaq və digər üzvlərinin (günah və itaətsizlikdən) dinc qalması, gözlərini yerə dikmələri, canlarının təvazökarlığı, qəlblərinin xarlığı və təkəbbür və lovğalığı onlardan uzaqlaşdırmaq üçün onları namazlar, zəkatlar və vacib günlərdə oruc tutmağa çalışmaq vasitəsi ilə fitnə-fəsad, zülm və təkəbbürlülükdən qoruyur....Çünki gözəl üzlərin təvazökarlığa görə torpağa sürtülməsi və kiçikliyi bildirmək üçün (səcdə zamanı) şərəfli üzvlərin (yeddi



yerin) yerə yapışdırılması namazdadır...” (“Nəhcül-Bəlağə”, 192-ci xütbə)

### 5- Namazı tərk edən ilahi əzaba düçar olacaq:

İmam Əli (ə) (namaz... barədə) öz səhabələrinə tövsiyə edib buyurur: “Namaz işinə riayət edin (ki, o, möminin meracı, dinin sütunu və qiyamətdə bəndədən soruşulacaq ilk şeydir. Əgər qəbul olmuş olsa, digər əməllər də qəbul olar. Qəbul edilməyib hesaba alınmadıqda isə əməllərin heç biri insana bir fayda verməz). Onu qoruyun (onun qılınmasının fəzilətli vaxtından qafil olmayın) və onu çox yerinə yetirin. Onun vasitəsi ilə (Allaha) yaxınlaşın. Çünki (“Nisa” surəsinin 103-cü ayəsində buyurulduğu kimi) namaz möminlərə yazılmış və vaxtı müəyyən edilmiş bir vacibdir. Məgər Cəhənnəm əhlinin (“Muddəssir” surəsinin 42-43-cü ayələrində olduğu kimi onlardan “sizi Cəhənnəmə salan nədir?” soruşularkən verdikləri bu cavaba ki, “onlar deyəcəklər: Biz namaz qılanlardan deyildik” (cani-dildən) qulaq asmırsınız? (“Nəhcül-Bəlağə”, 199-cu xütbə)

### 6- İlk namaz qılan şəxs:

Həzrət Əli (ə) buyurur: “İlahi, mən haqqa çatan, onu eşidən və qəbul edən ilk şəxsəm. Allahın Peyğəmbərindən (s) başqa heç kəs namazda məndən öndə olmayıb”. Yəni həzrət Peyğəmbərin dəvətini qəbul edib müsəlman olan və o Həzrətlə namaz qılan ilk şəxs mən olmuşam.

**Xəyal Tofiqoğlu**

ON4 TV və KANAL 12 FREKANSLARI

TÜRKSAT 4A
FREKANS: 12345
SEMBOL: 30000
POL: VERTICAL - DIKEY
FEC:3/4

Hörmətli Hadi TV3 izləyicilərinə bildirilir ki, kanalımızın yayımı "Hotbird" peykindən "Eutelsat" peykinə keçirilib. Kanalımızın yayımını "Eutelsat" peykindən izləyə bilərsiniz.

Hadi TV3 kanalının yeni yayım tezliyi (frekansı):

Satellite: ... Eutelsat 7A
Frquency: .......... 11262
Polarity: ................. H
Code Rate: ....... 27500
FEC: ......................... ¾

# Haramlar qadağan olmasaydı da, ağıllı insan onlardan onsuz da çəkinməliydi

Vicdan – batini bir dərkdir ki, insana həyata aid olan məsələri tanımağa yardım edər. İnsan bu batini dərk vasitəsilə başa düşər ki, həyatı əmanət və sədaqət üzərində qurulmalıdır, yalan, xəyanət pis əməl üzərində deyil.

Bəzi hədislərin nəzərinə görə, insanların rəyi vicdan qarşısında dəyərsizdir. Yəni, əgər vicdan bir işin düzgün olduğuna şəhadət versə, insanın haqqı yoxdur ki, başqalarının həmin işi bəyənmədiyinə görə onu tərk etsin. Həmçinin əgər vicdan bir işi yanlış və pis hesab edərsə, insanın haqqı yoxdur ki, həmin işi başqalarının bəyəndiyinə görə yerinə yetirsin.

İmam Əli (ə) buyurur: "Allah sənə yaxşılıqdan başqasına əmr verməmişdir, pislikdən başqasını qadağan etməmişdir".

Həzrət Peyğəmbər (s) buyurur: "Əgər kimsə bir məxluqun razılığını əldə etmək üçün Allahın qəzəbindən qorxmaz, Allah həmin məxluqu ona hakim edər".

İlahi vacibatlar əslində insanı yaxşılıqlara və düzlüklərə dəvət etməkdir. İlahi haramlar isə insanı pislik və şərdən saxlamaqdır.

İmam Əli (ə) buyurur: "Əgər Allah haramlarını qadağan etməsəydi, aqil (onsuz da) gərək onlardan çəkinəydi".

Ona görə də ey insan! Öz vicdanın səsinə qulaq ver, insanların deyil.

İmam Hüseyn (ə) buyurur: "Əgər kimsə elə rəftar edər ki, Allah ondan razı olsun, baxmayaraq ki, insanlar ondan narazıdır – Allah onun üçün elə təqdir edər ki, insanların şərindən amanda qalar. Ancaq əgər kimsə cəmiyyətdə sevimli olmaq istəyir və ona görə də elə rəftar edir ki, Allah ondan narazı olar – Allah onun işini insanlara buraxar".




Həzrət Peyğəmbər (s) buyurur: "Əgər kimsə sultanın razılığına görə Allahın razılığına riayət etməz, dindən xaric olar və həqiqi imanı olmaz".

Çünki iman – Allaha pərəstiş deməkdir. O kəs ki, Allaha itaətə boyun əyməz, dindən xaric olar. Ona görə də dinimiz insanların deyil, məhz Allahın razılığı olan işləri yerinə yetirməyə dəvət edir və Allahı qəzəbləndirən işlərdən çəkindirir.



# NƏYƏ GÖRƏ MƏHƏRRƏMLİYİ ƏZİZ TUTMALIYIQ?

*Nəyə görə 1400 il bundan qabaq baş vermiş bir faciəni yad etməli və mərasimlər keçirməklə, o hadisənin xatirəsini canlı saxlamalıyıq? Bu faciə neçə əsr bundan qabaq baş vermiş bir hadisədir; zaman keçir, dövran dəyişir, artıq olan-olub, keçən-keçib. 14 əsr keçdikdən sonra həmin hadisəni bir daha yaddaşlarda təzələyib, mərasimlər təşkil etməyin nə lüzumu vardır?*

*Bu sualın cavabı elə də mürəkkəb deyildir. Hər hansı bir yeniyetməyə çox asanlıqla başa salmaq olar ki, bütün cəmiyyətlərdə baş verən mühüm hadisələr, həmin xalqın gələcək həyatında, müqəddəratında böyük izlər qoyub, mühüm rol oynaya bilər. O xatirələrin yad edilməsinin səbəbi, həqiqətdə həmin hadisələrin bir daha bərpa edilib, xatirələrdə yenidən canlandırılmasıdır. Bu kimi tarixi hadisələrin təkrar-təkrar yad edilməsi həmin olayların həqiqi mahiyyətini üzə çıxarır, qarşılaşdıqları problemlərin həllində, gələcək həyatın düzgün qurulmasında xalqa yardımçı olur. Məlum məsələdir ki, həmin hadisə tarixin faydalı və şanlı səhifəsidirsə, onun yenidən yad edilib, canlandırılması insanlara şərəf, ləyaqət və ruh yüksəkliyi aşılayacaq.*

*Ümumiyyətlə, bütün xalqlarda bir növ keçmiş hadisələri xatırlamaq, uca tutub onları hörmətlə yad etmək adəti vardır. İstər cəmiyyətin inkişafında müsbət rol oynamış şəxsiyyətlər, böyük alimlər və tədqiqatçılar, istərsə də xalqının azadlığı uğrunda ictimai-siyasi səhnədə mübarizə aparmış millət qəhrəmanlarının xatirəsi şərəflə anılır, yad edilir. Dünyanın bütün ağıl və məntiq sahibləri belə şəxsiyyətlər üçün yubileylər, xatirə gecələri və müxtəlif tədbirlərin keçirilməsi zərurətini müsbət qəbul edirlər. Bu iş bütün insanların xarakterik xüsusiyyəti və ən müqəddəs fitri istəklərindən biri olub, "haqqı tanımaq hissi"nə əsaslanır. İnsanlar bəşəriyyətə, ayrı-ayrı cəmiyyətlərə və ya fərdlərə xidmət göstərmiş şəxslərin xatirələrini yad etməklə, bir növ onların haqlarını ödəyir, təşəkkür və minnətdarlıqlarını bildirirlər. Həmin xatirələr yad edilərkən, xüsusilə də əgər, həmin hadisələr cəmiyyətin səadət və xoşbəxtliyi yolunda təsirli olubsa, digər təsirli amillər də ona artırıla bilər. Bu halda, sanki o hadisələr yenidən canlanmış olur.*

*Bildiyiniz kimi, Aşura qiyamı İslam tarixinin böyük hadisələrindən biridir. Bu hadisənin müsəlmanların səadəti və eləcə də digər xalqların haqq yolunun işıqlandırılmasında çox mühüm və həlledici rolu olmuşdur və olmaqdadır. Bizim nəzərimizdə bu adi bir faciə deyil, tarixin olduqca dəyərli və önəmli bir hadisəsidir. Onun bir daha yad edilib xatırlanmasının ictimaiyyətimizin qarşılaşdığı gərgin problemlərin həllində özünəməxsus rolu vardır.*

*Gənclərin verdikləri sualların qarşısında bu kimi cavabları gətirməklə, onları qane edə bilərik ki, keçmişdə baş verən bəzi hadisələrin yenidən dirçəldilməsi tam mənada məntiqi bir işdir; belə bir tədbirin cəmiyyətin ümumi mənafeyinə uyğun olmasını bir kimsə inkar edə bilməz. Bu hadisə, baş verdiyi dövrdə həmin cəmiyyətə nə qədər böyük təsir göstərmişdisə, onun bu günümüzdə yad edilməsi də mövcud cəmiyyətlər üçün bir o qədər faydalı və təsirli ola bilər.*

*Doktor Misbah Yəzdi*